www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 fevral 2016-cı il Çərşənbə axşamı № 42 (6363) Qiymәti 60 qəpik

**Xəbər**

## Gəncədə dəhşət: ana azyaşlı oğlunu boğub öldürdü

yazısı səh.14-də

**Gündəm**

## Prezidentdən qlobal güclərə Qarabağ məsələsində ikili standart yanaşmaya görə sərt tənqid



**İham Əliyev**: "Münaqişənin uzanması həm də dini ayrı-seçkilikdən qaynaqlanır"

yazısı səh.9-da

## "Akif Çovdarovun elə bir xəstəliyi var ki..."

# HƏBSDƏKİ MTN GENERALININ VƏKİLİ DANIŞDI - İLGİNC AÇIQLAMALAR

Vəkil Sadiq Rəsulov sahibkarların gizli həbsxanada saxlanılmasına münasibət bildirdi: "Özü heç nə demək istəmir"; o, Eldar Mahmudovla bağlı sualı da cavablandırdı...




yazısı səh.5-də

## Avropaya Azərbaycandan ucuz uçuş - Qəbələ Tiflisi əvəz edə biləcəkmi

yazısı səh.3-də

*Mikayıl Cabbarov:*

## "Bilik test imtahanı ilə ölçülə bilməz"

yazısı səh.6-da

## Qiymət artımı qəzetləri xilas edə bildimi...

yazısı səh.3-də

## Avropa Birliyi parçalanma təhlükəsi ilə üzləşib

yazısı səh.4-də

## Birinci devalvasiyadan bir il ötdü: kimlər itirdi, kimlər qazandı?

yazısı səh.11-də

## Rəsul Quliyev ölkəyə qayıtmaq, yoxsa müxalifət lideri olmaq istəyir?

yazısı səh.13-də

## Ərdoğanın Bakı səfəri çox ləngiməyəcək

yazısı səh.4-də

## Türkiyənin Qarabağlar bölgəsində Qarabağ törənləri

yazısı səh.10-da

## ABŞ-Rusiya tarixi anlaşması gerçəkləşə bilər - Suriya məsələsində...

yazısı səh.13-də

## Bakıda hərbi hissə növbətçisi mağazadan oğurluq edən şəxsləri tutub

yazısı səh.2-də

## İlham Əliyevin İrana kritik səfəri başlayır - 4 paytaxtın diqqəti Tehranda

Azərbaycan prezidentindən bir gün öncə Rusiya müdafiə nazirinin Tehranda olması təsadüfdürmü?; Səfər işğalçı Ermənistandan Gürcüstana qaz nəqlinin mümkünlüyü məsələsinə nöqtə qoya bilər, əgər...; Tehranın Bakıdan əsas istəyi və gözləntisi nə olacaq?

yazısı səh.8-də



*Rəşad Məcid:*

## "Azərbaycanda siyasi məhbus yoxdur"

yazısı səh.12-də



*Sərdar Cəlaloğlu:*

## "Müsavatın və AXCP-nin tədbirləri bizim tədbirlərin kölgəsində qalır"

yazısı səh.11-də



## Səfir Sekuta ABŞ-Azərbaycan münasibətlərinə dair məqalə yazdı

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 42 (6363) 23 fevral 2016



# Prezident futbol üzrə Avropa çempionatının keçirilməsinə 2 milyon manat ayırdı

**Prezident İlham Əliyev 17 yaşınadək futbolçular arasında futbol üzrə Avropa çempionatının final mərhələsinin 2016-cı ildə Azərbaycan Respublikasında keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb. Axar.az xəbər verir ki, bu barədə prezidentin rəsmi saytı məlumat yayıb.**

**Sərəncamda qeyd edilir:** "Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1.** Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 17 yaşınadək futbolçular arasında futbol üzrə Avropa çempionatının final mərhələsinin 2016-cı ildə Azərbaycan Respublikasında keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Futbol Federasiyaları Assosiasiyasına 2,0 (iki) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin".

# Ölkə başçısı ipoteka vəsaitini artırmağı tapşırıb"

**"2015-ci il ərzində manatın iki dəfə devalvasiyaya uğraması və neftin qiymətinin kəskin düşməsi 2016-cı il üçün təsdiq edilən dövlət büdcəsinə yenidən baxılmasını zəruri etdi. Büdcə təsdiq edilən zaman neftin qiyməti 50 dollardan götürülmüşdü, hazırda isə qiymət 30 dollar civarındadır. Ona görə yeni büdcədə neftin qiyməti 30 dollardan hesablanıb".**

Bunu modern.az saytına Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov bildirib.

O qeyd edib ki, büdcənin həm gəlir, həm də xərclər hissəsinə təxminən 2,3 milyard manat əlavə var: "Əvvəl gəlirlər 14,5 milyard idisə, indi 16,8 manatdır. Xərclər əvvəl 16,2 milyard idisə, hazırda 18, 5 milyarddır. Bunun da 1,6 milyard manatı Dövlət Neft Fondundan transfer edilib, 1,7 milyard manatı isə əlavə vergilər hesabına ödəniləcək. Vergilərin əsas hissəsi Vergilər Nazirliyi tərəfindən 6,2 faiz, Gömrük Komitəsi tərəfindən 13 faiz artırılıb".

V.Əhmədov bildirib ki, 2,3 milyard əlavə hissənin 8 milyon manatı Prezident İlham Əliyevin verdiyi sərəncama uyğun olaraq əmək haqqı, pensiya, təqaüd, sosial müavinətlərin artırılmasına, 400 milyon manatı müdafiə xərclərinə, 525 milyon manatı dövlət borcu üçün, 300 milyon manatı isə digər sahələrə ayrılıb".

**Deputat insanları narahat edən ipoteka məsələsinin də tezliklə həll ediləcəyinə inandığını deyib:** "Əsas məsələlərdən biri də ipotekadır. İpoteka üçün 50 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. Amma dövlət başçısının göstərişinə əsasən, bu sahəyə əlavə 200 milyon manat ayrılacaq. Maliyyə naziri də bildirib ki, hazırda buna baxılır. Yəqin ki, məsələ öz müsbət həllini tapacaq. Ən ciddi məsələlərdən biri 2016-cı il üçün kənd təsərrüfatının daha da inkişaf etdirilməsinə nail olmaq, ixracyönümlü məhsulların istehsalını artırmaq, xüsusilə suvarma sistemlərinə nəzarəti artırmaqdır".

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalları rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur

# Xocalı faciəsinə aid kitab fransız dilində çap edildi

**"TEAS Press" Nəşriyyatında "Müharibə cinayətinin Xocalı şahidi. Ermənistan müttəhim kürsüsündə" ("Khojaly Witness of a war crime - Armenia in the Dock") kitabı fransız dilində çap edilib.**




"TEAS Press"dən APA-ya bildirilib ki, kitab ilk dəfə 2014-cü ildə Londonun "İTHACA PRESS" nəşriyyatında ingilis dilində (tərtibçilər: İen Peart, Fiona Maklaxlan) və 2015-ci ildə isə Sankt-Peterburqun "Vestnik" Nəşriyyatında rus dilində işıq üzü görüb. "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyasının təşəbbüskarı, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva kitaba müqəddimə yazıb.

Bu kampaniya çərçivəsində işıq üzü görən kitab 1992-ci il 26 fevral Xocalı hadisələrini ilkin mənbələrə əsasən sənədləşdirən və Qərbdə ingilis dilində işıq üzü görən ilk nəşrdir. Bu nəşr Xocalı qətliamından sağ çıxan insanlardan Qərb müəllifləri tərəfindən müsahibə yolu ilə alınmış şahid ifadələrinin ilk toplusudur.

Kitabda Qərb və Rusiya mediasında Xocalı hadisəsi ilə ələqədar çap olunmuş məqalələr, həmçinin elmi araşdırmalar yer alıb. Xocalı qətliamına dair beynəlxalq insan hüquqları təşkilatlarının (Memorial və Human Rights Watch/Helsinki) hesabatları topluda tam şəkildə çap olunub.

Xarici fotomüxbirlərin (Viktoriya İvleva, Frederik Lenqaiqn, David Brauxli, Klaus Reysinger, Lin Heng Shing və George de Kerl) lentə aldıqları nadir fotoşəkillər də kitabda xüsusi yer tutur.

Topluya beynəlxalq mediadan ("The Washington Post", "Le Monde", "The Times", "Trud", "Komsomolsskaya pravda" və s.) daxil edilmiş materiallar və fotoşəkillər Avropa-Azərbaycan Cəmiyyəti tərəfindən eksklüziv anlaşma nəticəsində əldə edilib və ilk dəfədir ki, işıq üzü görür.

"Khojaly Witness of a war crime - Armenia in the Dock" (Müharibə çinayətinin Xocalı şahidi. Ermənistan müttəhim kürsüsündə) kitabı Xocalı qətliamına dair obyektiv vəziyyəti əks etdirən bir hesabat olub, beynəlxalq ictimaiyyəti onun haqqında hərtərəfli şəkildə məlumatlandıran nadir nəşrlərdən biridir.

# Zakir Fərəcov Sumqayıtda Mübariz İbrahimovun adını əbədiləşdirdi

**Sumqayıtda küçələrdən birinə Milli Qəhrəman Mübariz İbrahimovun adı verilib. Sumqayıt Şəhər İcra Hakimiyyətinin sözçüsü İqrar Eyvazov modern.az-a faktı təsdiqləyib. Bildirib ki, bununla bağlı icra başçısı Zakir Fərəcovun qərarı olub. Belə ki, icra başçısı Sumqayıtın İnşaatçılar yaşayış massivindəki küçələrin birinə Milli Qəhrəman Mübariz İbrahimovun adının verilməsi haqqında sərəncam imzalayıb.**

# Dəm qazı bir gündə 4 can aldı

**Azərbaycanda bir gündə 4 nəfər dəm qazından boğulub. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, fevralın 21-də paytaxtın Yasamal rayonu ərazisində yaşayan Ələsgər Hacıyev və Toğrul İbrahimzadə yaşadıqları evdə, Daşkəsən şəhər sakinləri - Fəzail Məmmədov və arvadı Aybəniz Gəncə şəhərində yaşayan qohumlarının evində dəm qazından zəhərlənərək ölüblər.**

Faktlarla bağlı araşdırma aparılır.

# Kaxa Kaladze Bakıya gəlir

**Gürcüstanın baş nazirinin birinci müavini, energetika naziri Kaxa Kaladze fevralın 29-da Azərbaycana səfər edəcək. "APA-Economics" Gürcüstan mətbuatına istinadən xəbər verir ki, K. Kaladze Bakıda bir sıra rəsmi görüşlər keçirəcək.**

"Biz "Şahdəniz" yatağından əlavə həcmdə təbii qaz almaq üçün danışıqlarımızı davam etdiririk. Çox nikbinik və danışıqların müsbət nəticələnəcəyini düşünürük", - deyə K. Kaladzenin bəyanatında qeyd edilib.

# Bakı sakini içib öldü

Bakı sakini spirtli içki qəbul etdikdən sonra ölüb. Musavat.com-un DİN-in saytına istinadən verdiyi məlumata görə, fevralın 21-də Pirallahı rayonu ərazisində Bakı şəhər sakini Oksana Krutenko çoxlu miqdarda spirtli içki qəbul etdikdən sonra ölüb. Faktla bağlı araşdırma aparılır.

# ARDNF 13 banka 177,5 milyon dollar satıb

**Dünən Azərbaycan Mərkəzi Bankının müntəzəm hərracları vasitəsilə növbəti hərrac təşkil edilib. Azərbaycan Dövlət Neft Fondundan "APA-Economics"ə verilən məlumata görə, fond tərəfindən 200 mln. ABŞ dolları məbləğində vəsait hərraca çıxarılıb. Bu vəsaitdən 177 mln. 450 min dollar məbləğində vəsait 13 banka satılıb.**

İl ərzində ARDNF tərəfindən hərraclar vasitəsilə valyuta satışı davam etdiriləcək.

# Ukraynada qafqazlıların "razborka"sı: azərbaycanlı öldürüldü

**Ukraynanın Zaporojye vilayətinin Melitopol şəhərində azərbaycanlı qətlə yetirilib. APA TV-nin vesti.az-a istinadən xəbərinə görə, həmyerlimizlə hazırda saxlanılan şəxslər arasında narazılıq olub və o, mübahisə zamanı öldürülüb.**

Polis həmin şəxslərin də Qafqaz millətlərindən olduğunu dəqiqləşdirib. Qətli törədənlərin Ukraynada qanunsuz yaşadıqları bildirilir.

Dava zamanı qarşı tərəfdən də iki nəfər yaralanıb. Adı çəkilməyən şəxsin 1969-cu ildə anadan olduğu bildirilir. O, hazırda xəstəxanadadır.

Öldürülən azərbaycanlının üzərindən RQD-5 qumbarası tapılıb.

# Hərbi hissə növbətçisi mağazadan oğurluq edən şəxsləri tutub

**Bakıda mağazadan oğurluq etmək istəyən şəxslər tutulub. Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən APA-ya verilən məlumata görə, fevralın 20-də saat 06:00 radələrində Dövlət Sərhəd Xidmətinin Bakının Nizami rayonu ərazisində yerləşən hərbi hissəsinin növbətçisi, baş çavuş Əlbəndəyev Süleyman Qasımbala oğlu yaxınlıqdakı ərzaq mağazasından iki nəfər mülki şəxsin oğurluq etməyə cəhd göstərdiklərini görüb.**

Hərbi hissə növbətçisi onları saxlamaq istəyərkən şəxslərdən biri hadisə yerindən qaçıb. S. Əlbəndəyev həmin şəxsi təqib edərək saxlayıb və hər iki şəxsi hadisə yerinə çağırılan Nizami Rayon Polis İdarəsi əməkdaşlarına təhvil verib.

# Şəmkirdə 9-cu sinif şagirdi bıçaqlandı

**Şəmkir rayonunda bıçaqlanma hadisəsi baş verib. Orta məktəb şagirdi bıçaqlanıb. Çaykənd kənd sakininin ANS PRESS-ə verdiyi məlumata görə, kənd sakini 2000-ci il təvəllüdlü Vüsal Aqil oğlu Əhmədov dərsdən çıxıb evə gedərkən aralarında yaranan mübahisə zəminində həmkəndlisi Xəlil Qaçay oğlu Süleymanov tərəfindən bıçaqlanıb.**

Sol döş qəfəsindən kəsilmiş-deşilmiş yara alan 16 yaşlı məktəbli dərhal Şəmkir Mərkəzi Rayon Xəstəxanasına çatdırılıb. Onun üzərində cərrahiyyə əməliyyatı aparılıb.

Kənd sakini onu da əlavə etdi ki, hadisəni törədən şəxsin kim olduğu məlumdur, amma hələlik saxlanılmayıb. Ancaq yaxın saatlarda dindirilmə üçün polis şöbəsinə aparılacaq.

Faktla bağlı Şəmkir Rayon Polis İdarəsində araşdırma aparılır. Hələlik hadisənin dəqiq səbəbləri bilinmir.

Orta məktəb şagirdinin bıçaqlanması ilə bağlı qeydə alınan sonuncu fakt yanvar ayının 19-da Bakıda baş verib. 286 saylı orta məktəbin qarşısında həmin məktəbin 9-cu sinif şagirdi, 2001-ci il təvəllüdlü Arif Qəhrəmanov məktəb yoldaşı, 1999-cu il təvəllüdlü Xəqani Ramazanovu bıçaqlayıb.

Nəticədə X. Ramazanov xəstəxanaya yerləşdirilib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 42 (6363) 23 fevral 2016



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Avropaya Azərbaycandan ucuz uçuş - Qəbələ Tiflisi əvəz edə biləcəkmi

## Aslan İsmayılov: "Bunu özümə ad günü hədiyyəsi hesab edirəm"

**Xəbər verdiyimiz kimi, gələn aydan etibarən Türkiyənin aşağı büdcəli aviaşirkəti - "Pegasus" Azərbaycandan uçuşlara başlayacaq. İlk reys martın 19-da Qəbələ Beynəlxalq Aeroportundan İstanbulun Sabiha Gökçen hava limanına gerçəkləşəcək. Uçuşlar həftədə 3 dəfə - bazar ertəsi, cümə axşamı və şənbə günləri olmaqla, Qəbələdən, həftənin çərşənbə axşamı, cümə və bazar günləri İstanbuldan həyata keçiriləcək.**

Aviabiletlərin qiyməti bir istiqamət üzrə bütün vergi və yığımlar daxil olmaqla, 48 avrodur. Təxminən o qədər də geriyə dönüşün qiymətidir. Yeni Azərbaycan vətəndaşı 100 avro (170 manat) məsrəflə İstanbula gedib-gələ biləcək. Lakin əsas olan İstanbul deyil, çünki qardaş ölkəyə getmək üçün vətəndaşlarımızın seçim imkanları çoxdur; bu sırada avtobus səfərləri öndə gəlir. Hava nəqliyyatının monopolisti AZAL-ın da İstanbula biletlərində ciddi endirimlər mövcuddur - öncədən almaqla, İstanbula Bakıdan 250 manata uçmaq olar. Lakin bu şərtlə ki, təyyarədə sənə yemək və su verilməyəcək - istəyənlər onları əlavə pul ödəməklə əldə edə bilərlər. Bir də AZAL-ın ucuz uçuşlarında baqaj da əlavə pulladır - 20 manat ödəməklə yük yerinə bir baqaj vermək olur. Əl baqajının çəkisi isə 5 kq-dan artıq olmamalıdır.

İstənilən halda, Qəbələdən Avropaya pəncərə açılmasını ölkə ictimaiyyəti və hətta ciddi ekspertlər müsbət hadisə kimi qiymətləndirirlər. Bu, region üçün yeni imkanlar deməkdir - həm də Bakıda yaşamayan azərbaycanlıların xaricə uçmaq üçün paytaxta doğru uzun yol gəlməsini məcburi etmir. Digər tərəfdən və ən mühümü isə budur ki, səyahətə gedən, istirahət proqramı ilə yola çıxan azərbaycanlılar daha Tiflisə getməyə məcbur deyillər, bunun üçün Qəbələyə getmək də yetərlidir.

**AZAL-ın monopoliyasından və yüksək qiymətlərdən şikayətçi olan bir sıra tanınmış azərbaycanlılar yeni açılıma dair sosial şəbəkələrdə öz fikirlərini yazıblar. Onlardan ən barizi tanınmış hüquqşünas Aslan İsmayılovdur. Aylardır bu barədə yazan və sözün həqiqi mənasında, mübarizə aparan Aslan İsmayılov özünün facebookdakı səhifəsində Qəbələdən Avropaya ucuz bilet imkanlarını yüksək dəyərləndirir:** "Başım qarışdığından ad günümə olan ən böyük hədiyyəni görməmişəm. Türkiyənin Pegasus Airlines ttps://www.facebook.com/hashtag/pegasusairlines?source=feed_text&story_id=1086248081439136 hava şirkəti mart ayından etibarən Qəbələdən Avropanın müxtəlif şəhərlərinə aşağıdakı qiymətlərə uçacaq... Bu, "Biz nə edə bilərik" sualına cavabdır".



**Qiymətlərsə bunlardır (tək tərəfli):**

**Qəbələ - İstanbul 38 avro**
**Qəbələ - Bodrum 54 avro**
**Qəbələ - Barselona 75 avro**
**Qəbələ - Berlin 74 avro**
**Qəbələ - Amsterdam 75 avro**
**Qəbələ - Sürix 80 avro**
**Qəbələ - Kopenhagen 79 avro**
**Qəbələ - Milan 79 avro**
**Qəbələ - Praqa 79 avro**
**Qəbələ - Roma 79 avro**
**Qəbələ - Paris 80 avro**
**Qəbələ - Təl Əviv 80 avro**
**Qəbələ - Moskva 87 avro**

Buradakı rəqəmlərə nələri əlavə etmək olar? Əgər hava gəmisinin potensial sərnişini Bakıda yaşayırsa, Qəbələyə getmək üçün yol və bir dəfə yemək xərcini. Müxbirimizin araşdırmasına görə, Bakı Avtovağzalından 5.10 AZN məbləğində bilet almaq kifayətdir. İri tutumlu avtobuslar sutkanın istənilən saatında bu şəhərə səfər gerçəkləşdirir.

Avtobus əvəzinə taksi xidmətindən istifadə etmək istəyənlərin isə bunun üçün 10 AZN ödəmələri yetərlidir. Bu əlavə xərclər, istənilən halda Bakıdan Tiflisə, ya da Kutaisə getmək xərclərindən azdır. Açığı, yolun əziyyətini də buraya əlavə etsək, Qəbələdə açılan yeni hava xətti yalnız Aslan İsmayılovun doğum gününə deyil, hər kəsə hədiyyədir. Məlum olduğu kimi, hakimiyyət daxilində də AZAL-ın qiymət siyasəti ilə razılaşmayan xeyli məmur var. Hesab edirik ki, bu gəlişmə onları da məmnun edib.

Yuxarıda da qeyd etdiyimiz kimi, yeni uçuş imkanları bölgələrdə yaşayan insanlarımız üçün böyük imkanlar açır. Lakin məsələ burasındadır ki, Bakıdan Avropaya uçmaq istəyən vətəndaşlarımız da, uçuş nöqtəsi olaraq Qəbələni seçsələr, iki dəfə qənaət etmiş olarlar. Məsələn, mart ayında Qəbələdən Parisə Peqasusla təktərəfli uçuş 80 avroyadır. AZAL-la Bakıdan Parisə uçuş isə 190 Avroyadır. Qəbələdən Praqaya 79 avroya uçmaq mümkün olduğu halda, Bakıdan, AZAL-la 280 avroya (təktərəf) uçmaq məcburiyyəti var.

Doğrudur, burada bir nüans var: AZAL uçuşları birbaşa həyata keçirdir. Üstəlik, onun təyyarələri Peqasus Hava Yolları ilə müqayisədə xeyli üstün və daha komfortludur. Pegasusla Avropaya uçmaq üçünsə mütləq İstanbulda aralıq enişi etmək lazım olacaq. Bəzi səfərlər 13-15 saat çəkir. Üstəlik, Qəbələdən təyyarələr bir qaydada olaraq, gecə saatlarında, ya da səhərə yaxın qalxır. Məsələn, Qəbələdən Milana təyyarə səhər 04.20 radələrində qalxır. Milana eniş saatı isə 17.10-dur. Bu isə təxminən 13 saat yolda və hava limanlarında olmaq deməkdir. Bu baxımdan, imkanlı vətəndaşlar və eləcə də xaricilər daha baha olsa da, daha yüksək komfortu seçəcəklər. Lakin orta statistik azərbaycanlı, eləcə də məsələn, Avropadan İstanbula ucuza gəlmək istəyən səyyah Qəbələdən keçən ucuz reysləri seçəcək. Çünki ortadakı fərq olduqca ciddidir.

Ekspertlərdən biri "Yeni Müsavat"ın müxbirinə deyib ki, reyslərin bu saatda gerçəkləşməsində nə Pegasus firmasının, nə də Qəbələ aeroportunun məsuliyyəti var. Uçuşları, ölkədə hava nəqliyyatına nəzarət edən qurumun - AZAL-ın bu məsələdəki tənzimləməsi qrafiki gördüyünüz hala salıb. Əslində qrafikə nəzər salan bir çox müştərilər "o saatda baş tutan uçuşlar əlverişli deyil, harada qalacağıq" desələr də, azərbaycanlı turistlərin bu məsələdə təcrübəli olduğu faktdır. Çünki yay aylarında daha sərfəli Türkiyə tətili etmək üçün Tiflis üzərindən tətil paketi alan yerli turistlər də eyni çətinliyi yaşamışdı. Belə ki, onların Tiflis-Bodrum, Tiflis-Antalya reysi üçün gecə saatlarını gözləməsi, hotellərinə gecə saatlarında çatması, hotel otaqlarında yerləşmələri üçünsə günorta saat 14.00-ə qədər gözləmələri fakt idi.

İndiki halda da Qəbələyə çatma saatını tənzimləmək o qədər də çətin olmayacaq. Maşınla Qəbələyə gələnlər aeroportda gecə saat 2 radələrində *(uçuşdan 2 saat öncə orda olmaq şərtdir -müəllif.)* olmaq üçün səfərlərini planlaşdıracaqlar. Şəxsi maşını və ya avtobusla Qəbələyə gələnlər bu incə detalı nəzərə almaqla, o qədər də əziyyət çəkməyə bilər.

Turizm firmalarından onu da bildirdilər ki, indidən belə səfər arzusunda olanlar biletlərini rezerv etsələr yaxşıdır. Çünki bu qiymətlərlə Avropaya getmək istəyənlərin sayı çoxdur. Aksiyanın nə vaxta qədər davam edəcəyi isə bilinmir.



Qiymət məsələsində də bəzi nüanslara diqqət yetirmək lazımdır. Yuxarıda yazdığımız bilet qiymətləri minimaldır. Belə ki, bu qiymətə ancaq əl baqajı daxildir. Əlavə baqaj, eləcə də səfər zamanı yemək üçün xüsusi məbləğ ödənməlidir. Bunu hesablamaq üçün Pegasus şirkətinin rəsmi internet saytına (https://www.flypgs.com/ ttps://www.google.com/url?q=https%3A%2F%2Fwww.flypgs.com%2F&sa=D&sntz=1&usg=AFQjCNH67kNOJu-O3dZBPhvSshdA2NXMDJA) daxil olub, detallarla maraqlanmaq mümkündür.

❑ **Sevinc TELMANQIZI**

# Qiymət artımı qəzetləri xilas edə bildimi...



**Ələsgər Süleymanov:** "Güman edirik ki, bununla müəyyən xərcləri nisbətən kompensasiya edə biləcəyik"



**Sucəddin Şərifov:** "Böhran davam edir"

**Dekabrda baş verən ikinci devalvasiyadan sonra onsuz da problemlər içərisində boğulan çap mediasının vəziyyəti daha da ağırlaşdı. Bu problemlər, çap kağızının bahalaşması, nəşriyyatın çap xərclərini artırması qəzetləri qiymətlərini bahalaşdırmaq məcburiyyətində qoydu. Ancaq təəssüflər olsun ki, bu qiymət artımı çap xərclərini tam olaraq kompensasiya etmək iqtidarında olmadı.**

**"Yeni Müsavat" qəzetinin baş direktoru Ələsgər Süleymanov** bu artımın müəyyən xərcləri nisbətən kompensasiya edə biləcəyini dedi: "Biz keçən ilin sonundan qərar vermişdik ki, qəzetin qiymətini 50 qəpik edək. Dekabrın 21-də yenidən devalvasiya oldu və manat dollara nisbətdə daha da ucuzlaşdı. Qəzet kağızının qiyməti də artdı. Bu artımdan sonra çap xərclərini kompensasiya etmək üçün yanvar ayının ortalarından qəzetin qiymətini yenidən 10 qəpik artırmağa məcbur olduq və qəzetin qiymətini 60 qəpik müəyyənləşdirdik. 60 qəpik qiymətin dolğun hesabatı hələ ki məlum deyil. Çünki yayım firmalarının bir çoxu hesabatı növbəti ayın 25-nə hazır edir. Biz hələ ki o hesabatları gözləyirik. Güman edirik ki, bu artım nisbətən də olsa müəyyən xərcləri kompensasiya edəcək. Amma həm də mövsümlə əlaqədar olaraq qəzetin satışında müəyyən qədər problemlər var. Çünki havanın dəyişkən, soyuq olması ilə əlaqədar küçələrdə insanlar çox az olur. Ona görə də qış aylarında qəzet daha az satılır".

**"Azadlıq" qəzetinin redaktoru Sucəddin Şərifov onlarda böhranlı vəziyyətin davam etdiyini dedi:** "Qiymətləri artırmağımız təəssüflər olsun ki, çap xərclərini kompensasiya etmir. Çünki bizim qiymət artımından sonra növbəti dəfə kağızın qiymətində artım baş verdi. "Azadlıq" qəzetində ciddi əmək haqqı problemi var idi. Gündəlik yaşam xərclərinin artması da öz təsirini göstərir. Böhran davam edir. Qiymət artımından sonra "Azadlıq" qəzetinin satışında elə də ciddi bir dəyişiklik olmayıb. Stabil sayda oxucu öz yerində qalır".

❑ **Günel MANAFLI**

Aviabiletlərin qiyməti bir istiqamət üzrə bütün vergi və yığımlar daxil olmaqla, 48 avrodur. Təxminən o qədər də geriyə dönüşün qiymətidir. Yəni Azərbaycan vətəndaşı 100 avro (170 manat) məsrəflə İstanbula gedib-gələ biləcək. Lakin əsas olan İstanbul deyil, çünki qardaş ölkəyə getmək üçün vətəndaşlarımızın seçim imkanları çoxdur; bu sırada avtobus səfərləri öndə gəlir. Hava nəqliyyatının monopolisti AZAL-ın da İstanbula biletlərində ciddi endirimlər mövcuddur - öncədən almaqla, İstanbula Bakıdan 250 manata uçmaq olar. Lakin bu şərtlə ki, təyyarədə sənə yemək və su verilməyəcək - istəyənlər onları əlavə pul ödəməklə əldə edə bilərlər. Bir də AZAL-ın ucuz uçuşlarında baqaj da əlavə pulladır - 20 manat ödəməklə yük yerinə bir baqaj vermək olur. Əl baqajının çəkisi isə 5 kq-dan artıq olmamalıdır.

İstənilən halda, Qəbələdən Avropaya pəncərə açılmasını ölkə ictimaiyyəti və hətta ciddi ekspertlər müsbət hadisə kimi qiymətləndirirlər. Bu, region üçün yeni imkanlar deməkdir - həm də Bakıda yaşamayan azərbaycanlıların xaricə uçmaq üçün paytaxta doğru uzun yol gəlməsini məcburi etmir. Digər tərəfdən və ən mühümü isə budur ki, səyahətə gedən, istirahət proqramı ilə yola çıxan azərbaycanlılar daha Tiflisə getməyə məcbur deyillər, bunun üçün Qəbələyə getmək də yetərlidir.

AZAL-ın monopoliyasından və yüksək qiymətlərdən şikayətçi olan bir sıra tanınmış azərbaycanlılar yeni açılıma dair sosial şəbəkələrdə öz fikirlərini yazıblar. Onlardan ən barizi tanınmış hüquqşünas Aslan İsmayılovdur. Aylardır bu barədə yazan və sözün həqiqi mənasında, mübarizə aparan Aslan İsmayılov özünün facebookdakı səhifəsində Qəbələdən Avropaya ucuz bilet imkanlarını yüksək dəyərləndirir: “Başım qarışdığından ad günümə olan ən böyük hədiyyəni görməmişəm. Türkiyənin Pegasus Airlines ttps://www.facebook.com/hashtag/pegasusairlines?source=feed_text&story_id=1086248081439136 hava şirkəti mart ayından etibarən Qəbələdən Avropanın müxtəlif şəhərlərinə aşağıdakı qiymətlərə uçacaq... Bu, “Biz nə edə bilərik” sualına cavabdır” .

Qiymətlərsə bunlardır (tək tərəfli):

Qəbələ - İstanbul 38 avro
Qəbələ - Bodrum 54 avro
Qəbələ - Barselona 75 avro
Qəbələ - Berlin 74 avro
Qəbələ - Amsterdam 75 avro
Qəbələ - Sürix 80 avro
Qəbələ - Kopenhagen 79 avro
Qəbələ - Milan 79 avro
Qəbələ - Praqa 79 avro
Qəbələ - Roma 79 avro
Qəbələ - Paris 80 avro
Qəbələ - Təl Əviv 80 avro
Qəbələ - Moskva 87 avro

Buradakı rəqəmlərə nələri əlavə etmək olar? Əgər hava gəmisinin potensial sərnişini Bakıda yaşayırsa, Qəbələyə getmək üçün yol və bir dəfə yemək xərcini. Müxbirimizin araşdırmasına görə, Bakı Avtovağzalından 5.10 AZN məbləğində bilet almaq kifayətdir. İri tutumlu avtobuslar sutkanın istənilən saatında bu şəhərə səfər gerçəkləşdirir.

Avtobus əvəzinə taksi xidmətindən istifadə etmək istəyənlərin isə bunun üçün 10 AZN ödəmələri yetərlidir. Bu əlavə xərclər, istənilən halda Bakıdan Tiflisə, ya da Kutaisə getmək xərclərindən azdır. Açığı, yolun əziyyətini də buraya əlavə etsək, Qəbələdə açılan yeni hava xətti yalnız Aslan İsmayılovun doğum gününə deyil, hər kəsə hədiyyədir. Məlum olduğu kimi, hakimiyyət daxilində də AZAL-ın qiymət siyasəti ilə razılaşmayan xeyli məmur var. Hesab edirik ki, bu gəlişmə onları da məmnun edib.

Yuxarıda da qeyd etdiyimiz kimi, yeni uçuş imkanları bölgələrdə yaşayan insanlarımız üçün böyük imkanlar açır. Lakin məsələ burasındadır ki, Bakıdan Avropaya uçmaq istəyən vətəndaşlarımız da, uçuş nöqtəsi olaraq Qəbələni seçsələr, iki dəfə qənaət etmiş olarlar. Məsələn, mart ayında Qəbələdən Parisə Peqasusla təktərəfli uçuş 80 avroyadır. AZAL-la Bakıdan Parisə uçuş isə 190 Avroyadır. Qəbələdən Praqaya 79 avroya uçmaq mümkün olduğu halda, Bakıdan, AZAL-la 280 avroya (təktərəf) uçmaq məcburiyyəti var.

Doğrudur, burada bir nüans var: AZAL uçuşları birbaşa həyata keçirdir. Üstəlik, onun təyyarələri Peqasus Hava Yolları ilə müqayisədə xeyli üstün və daha komfortludur. Pegasusla Avropaya uçmaq üçünsə mütləq İstanbulda aralıq enişi etmək lazım olacaq. Bəzi səfərlər 13-15 saat çəkir. Üstəlik, Qəbələdən təyyarələr bir qayda olaraq, gecə saatlarında, ya da səhərə yaxın qalxır. Məsələn, Qəbələdən Milana təyyarə səhər 04.20 radələrində qalxır. Milana eniş saatı isə 17.10-dur. Bu isə təxminən 13 saat yolda və hava limanlarında olmaq deməkdir. Bu baxımdan, imkanlı vətəndaşlar və eləcə də xaricilər daha baha olsa da, daha yüksək komfortu seçəcəklər. Lakin orta statistik azərbaycanlı, eləcə də məsələn, Avropadan İstanbula ucuza gəlmək istəyən səyyah Qəbələdən keçən ucuz reysləri seçəcək. Çünki ortadakı fərq olduqca ciddidir.

Ekspertlərdən biri “Yeni Müsavat”ın müxbirinə deyib ki, reyslərin bu saatda gerçəkləşməsində nə Pegasus firmasının,

nə də Qəbələ aeroportunun məsuliyyəti var. Uçuşları, ölkədə hava nəqliyyatına nəzarət edən qurumun - AZAL-ın bu məsələdəki tənzimləməsi qrafiki gördüyünüz hala salıb. Əslində qrafikə nəzər salan bir çox müştərilər “o saatda baş tutan uçuşlar əlverişli deyil, harada qalacağıq” desələr də, azərbaycanlı turistlərin bu məsələdə təcrübəli olduğu faktdır. Çünki yay aylarında daha sərfəli Türkiyə tətili etmək üçün Tiflis üzərindən tətil paketi alan yerli turistlər də eyni çətinliyi yaşamışdı. Belə ki, onların Tiflis-Bodrum, Tiflis-Antalya reysi üçün gecə saatlarını gözləməsi, hotellərinə gecə saatlarında çatması, hotel otaqlarında yerləşmələri üçünsə günorta saat 14.00-ə qədər gözləmələri fakt idi.

İndiki halda da Qəbələyə çatma saatını tənzimləmək o qədər də çətin olmayacaq. Maşınla Qəbələyə gələnlər aeroportda gecə saat 2 radələrində (uçuşdan 2 saat öncə orda olmaq şərtdir -müəllif.) olmaq üçün səfərlərini planlaşdıracaqlar. Şəxsi maşını və ya avtobusla Qəbələyə gələnlər bu incə detalı nəzərə almaqla, o qədər də əziyyət çəkməyə bilər.

Turizm firmalarından onu da bildirdilər ki, indidən belə səfər arzusunda olanlar biletlərini rezerv etsələr yaxşıdır. Çünki bu qiymətlərlə Avropaya getmək istəyənlərin sayı çoxdur. Aksiyanın nə vaxta qədər davam edəcəyi isə bilinmir.

Qiymət məsələsində də bəzi nüanslara diqqət yetirmək lazımdır. Yuxarıda yazdığımız bilet qiymətləri minimaldır. Belə ki, bu qiymətə ancaq əl baqajı daxildir. Əlavə baqaj, eləcə də səfər zamanı yemək üçün xüsusi məbləğ ödənməlidir. Bunu hesablamaq üçün Pegasus şirkətinin rəsmi internet saytına (https://www.flypgs.com/ ttps://www.google.com/url?q=https%3A%2F%2Fwww.flypgs.com%2F&sa=D&sntz=1&usg=AFQjCNH67kNOJuO3dZBPhvSshdA2NXMDJA)daxil olub, detallarla maraqlanmaq mümkündür.

Sevinc TELMANQIZI



# Ərdoğanın Bakı səfəri çox ləngiməyəcək

## Türkiyə prezidentinin səfəri baş tutarsa, hansı təhlükələr mümkündür? **Qabil Hüseynli:** "Mütləq o iclas bu il keçiriləcək..."

**Məlum olduğu kimi, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın fevralın 18-də Bakıya planlaşdırılan səfəri qardaş ölkədəki terror faciəsi ilə bağlı təxirə salınıb. Hazırda Azərbaycan ictimaiyyəti arasında əsas müzakirə mövzularından biri Ərdoğanın ölkəmizə səfərinin nə zaman gerçəkləşəcəyidir.**

Doğrudur, Türkiyənin dövlət başçısı faciə günü prezident İlham Əliyevlə telefon danışığı zamanı səfərini tezləşdirəcəyini bildirmişdi. Qardaş ölkənin xarici işlər naziri Mövlud Çavuşoğlu da azərbaycanlı həmkarı Elmar Məmmədyarovla günlər öncə Bakıdakı görüşündə Ərdoğanın təxirə salınan səfərinə toxunmuş və yaxın zamanlarda bunun həyata keçiriləcəyini qeyd etmişdi.

Ankara faciəsinin törədilməsi səbəblərindən ilk versiya kimi, Ərdoğanın Bakıya, baş nazir Əhməd Davudoğlunun Brüsselə planlaşdırılan səfərlərinin önə çəkildiyi hər kəsə məlumdur. Bunun fonunda Rusiyanın Ankara faciəsi ilə əlaqəsinin olması barədə fikirlər gündəmdən düşmür. Çünki Türkiyə prezidenti və baş nazirinin səfərlərində əsas müzakirə mövzusunun Rusiya olacağı əvvəlcədən sirr deyildi. Faciədən keçən müddətdə ortaya çıxan faktlar prosesləri şimal qonşumuzun üzərinə doğru aparır.

Hazırda Azərbaycan cəmiyyəti arasında əsas narahatlıq doğuran Ərdoğanın Bakıya zamanı olmasa da, edəcəyi səfərdir. Bu səfərin gerçəkləşəcəyi mütləqdir. Çünki fevralın 18-də planlaşdırılan Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclası ildə bir dəfə keçirilir. Bu baxımdan Ərdoğanın bu il ərzində səfərinin olacağı gözlənilir. Əsas narahatçılıq Türkiyənin dövlət başçısının səfəri zamanı qardaş ölkə və Azərbaycanı gözləyə biləcək təhlükələrdir. Çünki birinci səfərinə mane olunubsa, ikincidə də bu gözlənilə bilər.

**Politoloq Qabil Hüseynliyə görə, Türkiyə prezidentinin Azərbaycana səfəri uzadılmayacaq:** "Fevralın 18-də Strateji Əməkdaşlıq Şurasının iclası olmalı idi. Bu iclas ildə bir dəfə keçirildiyinə, bu ilin iclası olduğuna görə, mütləq o iclas bu il keçiriləcək. Tez də ola bilər, gec də. Hazırda Türkiyədə vəziyyət gərgin olduğuna görə səfərin tezliklə təşkil olunacağını güman etmirəm. Amma səfər çox da uzadılmayacaq. Uzağı, yaxın bir ay ərzində səfərin gerçəkləşəcəyini təxmin edirəm. Gündəlikdəki məsələlər ətraflı şəkildə müzakirə olunacaq. Çünki bu görüş prinsipial əhəmiyyətə malikdir. Türkiyə ətrafında münasibətlərin qızışdığı dövrə təsadüf edir. Odur ki, Azərbaycanla bağlı mövqelərin dəqiqləşdirilməsinə böyük ehtiyac duyulur".

**Politoloq səfərin təxirə salınmasında Rusiya amilinin olması fikirlərinin hələ də gündəmdə qalmasına toxundu:** "Ekspert rəyi kimi, biz bunu ehtimal kimi söylədik. Amma qənaətim yenə də ondan ibarətdir ki, bunu bir terror təşkilatı hazırlayıb həyata keçirə bilməzdi. Bunu güclü kəşfiyyat idarəsi olan dövlətlərin qəyyumluğu ilə həyata keçirmək olardı. Türkiyə ilə münasibətləri pis olan dövlətlərdən birincisi də Rusiyadır. Dumada çıxış edən Putin demişdi ki, Türkiyəni gözləmədiyi yerlərdən vuracağıq. Davam etmişdi ki, Türkiyəni elə hala salacağıq, etdiyinə dəfələrlə peşman olacaq. Zənnimcə, Hərbi Hava Qüvvələrinin bayramı günündə, bu günə aid olan pilotların avtomobilinin partladılması yalnız Rusiyanın maraqlarına cavab verərdi. Ona görə də mən də belə ehtimal var ki, bu terror aktında Rusiyanın əli olmamış deyil. Ərdoğandan tələb olunmuşdu ki, rus təyyarəsini vuran pilotlar cəzalandırılsın. Lakin Türkiyə buna da "yox" demişdi. Görünür, pilotların cəzalandırılması işi terrorçu təşkilatlara tapşırılıb".

**Q.Hüseynli Ərdoğanın Bakı səfərinin gerçəkləşəcəyi təqdirdə, gözlənilən təhlükələrdən də söz açdı:** "Hər halda, fevralın 18-də olacaq səfər üçün ciddi təhlükəsizlik tədbirləri görülmüşdü. Görüşün Bakıda deyil, Gəncədə keçirilməsi planlaşdırılmışdı. Bu, təhlükəsizlik tədbirləri ilə əlaqədar idi. Görüş yerinin Gəncə deyilib, sonradan Bakıya dəyişdirilməsi məhz bəlli dövlətin kəşfiyyatını azdırmaq məqsədi güdürdü. Son anda duman bəhanə gətirildi. Görünür, Türkiyə və Azərbaycan kəşfiyyatı mühüm məlumat əldə ediblər. Baş verən terror aktı və səfərlərin təxirə salınması ayrı-ayrı ssenarilərin parçaları idi".

❑ Cavanşir ABBASLI

# "Türkiyənin iki seçimi var"

## **Elxan Şahinoğlu:** "Terrorçulara dəstək məsələsində ABŞ, Rusiya və Əsədin mövqeləri üst-üstə düşür"

**Türkiyədəki son terror olayları qardaş ölkənin məkrli qüvvələrin hədəfində olduğuna şübhə yeri qoymadı. Bəs bu qüvvələr kimdir, Türkiyə beynəlxalq siyasətdə kimin ayağını tapdayır? Əslində sualların təxmini cavabları bəllidir. Lakin bu prosesdə aysberqin görünməyən tərəfində kimlərin olduğu da maraqlıdır.**

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirdi ki, baş verənlərin birbaşa Ərdoğanla bağlı olduğunu düşünmür və bütövlükdə Türkiyənin hədəfdə olduğu heç kimə sirr deyil:** "Bölgədə vəziyyət həqiqətən gərgindir. Suriyada da müharibə gedir və bu müharibədə Türkiyə əsas oyunçulardan biridir, obyektiv olaraq müəyyən maraqları var. Türkiyə bölgədə terrorçularla savaş aparır. Təsəvvür edin ki, əgər əvvəllər Türkiyə bir terror qruplaşması ilə savaşırdısa, indi buna ikisi də əlavə olunub. İkisi Suriyada PKK-nin qolları PYD və YPG-dir. Bundan başqa da DAEŞ (İŞİD)-dir. Bunların hər biri Türkiyəni hədəfə alıb və zəiflətməyə çalışır. Ancaq son terror olayının arxasında başqa geosiyasi məqsədlər də ola bilər. Mümkündür ki, həmin PKK və onun törəmələri, eləcə də DAEŞ qəsdən bu terror aksiyasını Ankarada, ordu qərargahının qarşısında keçiriblər ki, Türkiyə Suriyaya müdaxilə etsin və bununla da Suriyada Türkiyə ilə Rusiya arasında qarşıdurma yaransın və bu iki dövlət arasında müharibə başlasın. Həmin qüvvələr də bundan öz maraqları üçün istifadə etsinlər".



**Politoloqun sözlərinə görə, hazırda Türkiyənin iki seçimi var:** "Ya həqiqətən bu terror aksiyasından sonra Suriyaya müdaxilə edib bufer zonası yaratmaq, ya da artilleriya zərbələrini intensivləşdirmək. Təkbaşına Suriyaya daxil olmaq Türkiyəyə bir qədər problemlər yarada bilər. Ancaq hər halda, bu partlayışların arxasında xarici güclər də dayana bilər ki, onların da məqsədi Türkiyəni zəiflətmək ola bilər. Bu, təkcə Ərdoğana qarşı deyil. Türkiyənin bölgədə oynadığı roldan narahat olan qüvvələr var və həmin qüvvələr sanki Türkiyəyə qarşı bir koalisiya formalaşdırıblar. Çox təəssüf ki, Rusiya da bu koalisiyanın içində rol alıb. Rusiya bir il öncə Türkiyənin hərbi tərəfdaşı idi, nə PKK-ya dəstək verirdi, nə Suriyaya müdaxilə edirdi. İndi bunlar hamısı var. Rusiya Suriyada müxalifətin mövqelərini bombalayır, hansı ki o müxalifətə Türkiyə dəstək verir. YPG və PYD vasitəsilə Rusiyadan PKK-ya silahlar gedir ki, bunlar da Türkiyəni zəiflətmək üçündür. Rusiyada artıq hakimiyyətə yaxın ekspertlər açıq deyirlər ki, onların məqsədi bölgədə Türkiyəni zəiflətmək, parçalamaqdır və bu məqsədlə terrorçu təşkilatlara dəstək verirlər. Bu məsələdə çox təəssüf ki, Amerika ilə Rusiyanın maraqları üst-üstə düşür. Amerika bir tərəfdən deyir ki , Əsəd getməlidir və Rusiyanın Suriyada hərbi varlığı düzgün deyil. Digər tərəfdən də bilə-bilə Əsədin və Rusiyanın dəstək verdiyi PYD-yə dəstək verir. Bu da onu göstərir ki, terrorçulara dəstək məsələsində Amerika, Rusiya və Əsədin mövqeləri üst-üstə düşür".

**Elxan Şahinoğlu onu da bildirdi ki, Rusiyadan fərqli olaraq, Amerika və Avropa Birliyi Türkiyənin bölgədə zəifləməsində maraqlı deyil:** "Düzdür, Amerika terror qruplarını dəstəkləyir. Lakin onlar da anlamalıdırlar ki, Türkiyənin zəifləməsi onların da maraqlarına çox böyük zərbə vura bilər. Çünki Amerika Türkiyəni itisə, müttəfiqini itirmiş olar. Düzdür, müttəfiq olaraq aralarında tez-tez fikir müxtəlifliyi yaranır. Ancaq Amerikanın Türkiyədə hərbi bazası var. Lazım olan məqamlarda Türkiyə Amerikanın müəyyən maraqlarını da həyata keçirir. Eyni zamanda Avro İttifaqı haqqında da bu sözləri demək olar. Türkiyəni öz sıralarına qəbul etməsələr də, onun tamamən zəifləməsində və parçalanmasında da maraqlı deyillər".

**AKP iqtidarının əleyhinə olan qüvvələrə gəlincə , Elxan Şahinoğlu bildirdi ki, Türkiyənin həm daxilində, həm də xaricdə Ərdoğanın getməsini arzulayan qüvvələr var:** "Qərbdə məhz ona görə belə bir qərar verilib ki, bir adam iki dəfədən artıq nazir olmamalıdır. Çünki bir adam uzun müddət hakimiyyətdə qaldıqca səhvlər də buraxır. Biz Türkiyəni dəstəkləyərkən onun səhvlərini də deməliyik. İndiki gərgin vəziyyətdə Türkiyənin İsrail və Misirlə münasibətlərini gərginləşdirməsi əslində Türkiyənin milli və təhlükəsizlik maraqlarına cavab vermir. Mən bir faktı da deyim ki, İsraillə münasibətlər Fələstinə görə korlandı. Ancaq indi Fələstin problemi heç yada düşmür, ərəblər də Ərdoğana o qədər də güclü dəstək vermirlər. Ancaq bunun qarşılığında İsrail kürd silahlı qruplaşmaları ilə təmas qurur, onlara silah verir. Həmçinin də Misir ərəb dünyasının əsas aparıcı dövlətlərindən biridir. Misirdə hakimiyyət dəyişdikdən sonra Ərdoğan yeni prezidentlə münasibətlərini tamam korladı və bu da Türkiyənin maraqlarına cavab vermir. Suriyada müharibə varkən, Rusiya ilə münasibətlər gərgin ikən Türkiyə çalışmalıdır ki, dostlarının sayı çox olsun, nəinki düşmənlərinin".

❑ Nərgiz LİFTİYEVA

# Avropa Birliyi parçalanma təhlükəsi ilə üzləşib

## Britaniyanın qurumu tərk etməsi yenidən gündəmə gəlib; **Mehman Əliyev:** "ABŞ Avropa Birliyinin mövcudluğunda maraqlı deyil..."

**İngiltərənin Avropa Birliyindən (AB) çıxması məsələsi yenidən gündəmə gəlib. Artıq hər şey bununla bağlı keçiriləcək referendumda ingilis xalqının iradəsindən asılı olacaq.**



Doğrudur, Avropa İttifaqı Şurasının sədri Donald Tusk İngiltərənin hələ də qurumun tərkibində qaldığını bildirib: "Razılaşma əldə olundu. Avropa İttifaqı tərkibindəki Britaniya üçün qərar yekdilliklə qəbul edildi". Amma bu da heç nəyi dəyişmir. Çünki məsələ gündəmdə qalmaqda davam edir. Tuskun fikirləri hələ də öz təsdiqini tapmayıb.

Avropa Birliyinin son aylarda yaşadıqları elə də ürəkaçan deyil. Bundan öncə də Avstriya qurumu tərk edəcəyini açıqlamışdı. Ekspertlər hesab edir ki, Böyük Britaniya kimi güclü dövlətin AB-dən çıxmasına digər Avropa dövlətləri imkan verməyəcək. Xüsusilə də ABŞ-ın adı çəkilir. Çünki Amerikanın xarici siyasətindəki əsas müttəfiq ölkələrindən biri İngiltərədir.

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev İngiltərənin Avropa İttifaqını tərk edəcəyinə inanmır:** "İngiltərənin Avropa Birliyindən çıxacağını zənn etmirəm. Vaxtaşırı bu məsələ Britaniya hökuməti tərəfindən qaldırılıb. Amma sonradan danışıqlar əsasında İngiltərə qurumda qalıb. Bu, bir növ Şotlandiyanın İngiltərənin tərkibindən çıxması məsələsinə bənzəyir. Orada da referendum keçirilib. Lakin sonda Böyük Britaniyanın tərkibində qalması qərarı verilib. Düşünürəm ki, buna bənzər bir şey olacaq. Londonun özü üçün də bu çox vacibdir. Necə ki, Böyük Britaniyanın tərkibində ölkələr var, eləcə də Britaniyanın özü böyük bir qurumun tərkibindədir. Hüquqi əsasda Avropa Birliyini tərk etmək olar. Daxili sabitliyi qorumaq, mərkəzdənqaçma meyllərinin qarşısını almaq üçün İngiltərənin Avropa İttifaqında qalması vacibdir. Təbii ki, Britaniya hökumətinin də öz maraqları var. Miqrantlara ayırdığı vəsaitləri dayandıracaqları ilə bağlı İngiltərə hökumətinin açıqlamaları digər ölkələrə təzyiq xarakteri daşıyır. Çünki hazırda miqrantlara ən çox vəsait ayıran ölkələrdən biridir. Açığı, ABŞ Avropa Birliyinin mövcudluğunda və fəaliyyətində maraqlı deyil. Bu baxımdan İngiltərənin bu qurumda qalıb-qalmaması ABŞ üçün maraq kəsb eləmir. Düşünürəm ki, ingilislər də bu mesajı yaxşı başa düşürlər. Amma fikrimcə, İngiltərənin qurumun tərkibində qalmasına səs veriləcək".

Avropa Birliyinin 28 üzvü var. Avropanın öndə gedən dövlətləri bu nüfuzlu qurumun üzvüdür.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 42 (6363) 23 fevral 2016

## "Akif Çovdarovun elə bir xəstəliyi var ki..."

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, hazırda həbsdə olan Akif Çovdarovun vəkili Sadiq Rəsulov "Yeni Müsavat"ın suallarını cavablandırıb. Vəkil müvəkkili haqda bu günə qədər yayılan məlumatlara aydınlıq gətirib.**




# Həbsdəki MTN generalının vəkili danışdı - ilginc açıqlamalar

## Vəkil Sadiq Rəsulov sahibkarların gizli həbsxanada saxlanılmasına münasibət bildirdi: "Özü heç nə demək istəmir"; o, Eldar Mahmudovla bağlı sualı da cavablandırdı...

Sabiq idarə rəisinə CM-in 4 maddəsi ilə - qanunsuz olaraq azadlıqdan məhrum etmə, vəzifə səlahiyyətlərini aşma, əməliyyat-axtarış fəaliyyəti (qanunsuz gizli dinləmə, informasiya əldə etmə) haqda qanunu pozma və rüşvətxorluqda ittiham elan olunub. İlk sualımız da bununla bağlı oldu.

***- Akif Çovdarov ittihamları qəbul edirmi?***

- Bununla bağlı hələlik heç nə demək istəmirik. 50 adam gedib həmin parniklərə *(insanlara orada işgəncə verildiyi bildirilir - red.)* baxdı. Orada 1 metr dərinliyində belə yer tapmadılar. Amma adını qoymuşdular ki, orada kimlərəsə işgəncə verməyə xüsusi hazırlanmış yer var idi. Heç nə tapa bilmədilər.

***- Özü həbsi ilə bağlı nə deyir? Həbsini qanuni sayırmı?***

- Bu məsələlərlə bağlı heç nə demək istəmir. Bununla bağlı məndən xahiş edib ki, mətbuata nəsə deməyim.

***- Saxlama şəraiti ilə bağlı şikayətlərinin olduğu deyilirdi...***

- Digər saxlanılan şəxslər necə, Akif Çovdarov da eyni vəziyyətdə saxlanır. Dəhşətli dərəcədə super də deyil, adi qaydada saxlanılır. Hamı necədir, o da elə. Saxlama şəraiti normaldır. Hamı bilir ki, normal imkanı olan heç kim Kürdəxanıda (Bakı İstintaq Təcridxanası- E.M.) yemək yeməz. Hamı çalışır ki, həftədə bir dəfə evindən yemək gəlsin.

***- Akif Çovdarova da belə bir şərait yaradılır?***

- Həftədə bir dəfə ailəsi sovqat göndərir. Buna icazə verirlər.

***- Mətbuatda Akif Çovdarovun "MTN işi" üzrə həbs olunan digər məhbuslara təsir imkanlarının olduğu yazılıb...***

- Bu haqda məlumatsızam. Akif Çovdarovun digər məhbuslardan fərqli bir imtiyazı yoxdur.

***- Akif Çovdarovun iş yoldaşı, MTN-in Antiterror Mərkəzinin sabiq rəis müavini İlqar Əliyevin asılı vəziyyətdə olan meyiti Bakı İstintaq Təcridxanasındakı kamerada aşkar olundu. Akif Çovdarova belə bir təhlükə varmı?***

- Bununla bağlı nəsə deməyib. Elə bir şikayəti olmayıb.

***- Özü necə düşünür - onu təhlükəsiz şəraitdə saxlayırlar?***

- Bu sual elədir ki, ona cavab verə bilmərəm. Çünki Allahın işini bilmərəm. İlqar Əliyev özünü asıb, yoxsa asıblar, orada nə olub, heç nə deyə bilmərəm. Mən deyə bilmərəm ki, onun həyatına heç bir təhlükə yoxdur. Bəlkə sabah... Normal insan yatır və bəzən səhər ayılmır. Bir şey olsun, ondan sonra mən nə deyim?!

***- İlqar Əliyevin oradakı kameradan meyiti çıxandan sonra aranızda bununla bağlı müzakirə olmamış deyil. Akif Çovdarov bu haqda nə deyir, düşünür?***

- İlqarla bağlı gəldiyi bir nəticə yoxdur. Mənə də nəsə deməyib.

***- "MTN işi" üzrə həbs olunan şəxslərin vəkilləri Bakı İstintaq Təcridxanasında ciddi yoxlamalara məruz qalmalarından şikayət edirdilər. Sizin belə bir probleminiz olubmu?***

- Digər təqsirləndirilən şəxslərin vəkillərindən fərqli olaraq "MTN işi"nə çıxan vəkili çox ciddi yoxlayırlar. İlk gündən belə olub, bu gün də belə davam edir.

***- Akif Çovdarovun adı mətbuat səhifələrindən düşmür. Özünün buna münasibəti necədir?***

- Özü də başa düşür ki, mətbuat yazmalıdır, yazırlar. Nə aqressiyası, nə hər hansı bir reaksiyası yoxdur. Başa düşür ki, mətbuat yazmalıdır.

***- Akif Çovdarovun villalarına, maşınlarına həbs qoyulması xəbəri vardı. Həbs qoyulmayan əmlakı qalıbmı?***

- İstintaq bu haqda bizə məlumat vermir. Əmlakın üzərinə həbs qoyulursa, bunu biz bilməyə bilərik. İstintaq Reyestr Xidmətinə bir məktub yazır və əmlakın üzərinə həbs qoyulur. Bu haqda biz iş materialları ilə tanış olanda biləcəyik ki, belə bir qərar var, ya yox. Bu gün Akif Çovdarovun satdığı bir şey yoxdur, aldığı bir şey yoxdur. Ona görə də bu haqda bilmirik.

***- Necə düşünürsüz, istintaq hərəkətləri intensivdir, yoxsa araşdırmalar ləng gedir?***

- Dindirdikləri günlər çox olur. Amma bu o demək deyil ki, onu hər gün dindirirlər. İş onsuz da genişdir. Orada yeganə təqsirləndirilən şəxs Akif Çovdarov deyil.

***- Akif Çovdarov MTN-in ən böyük idarəsinin rəisi olub. Ən çox şikayətlər də həmin idarədən və məhz Akif Çovdarovdan olub.***

- Orada böyük idarələr bir neçə olub. Bu gün həbsdə Teymur müəllim, Sübahir müəllim də var. Onlar da generallardır. Belə götürəndə onlar da özlərinə görə idarə rəisi, vəzifəli şəxs olublar.

***- Akif Çovdarov Eldar Mahmudovun istintaqdan kənar qalması haqda nə deyir?***

-Heç bir fikir deməyib. Mən də soruşmamışam. Yəni mən Akif Çovdarovun müdafiə edirəm, nəyimə lazımdır ki, kim bayırda qalıb, kim həbs olunub? Mənə lazımdır ki, Akif Çovdarova qarşı prosessual pozuntu olmasın. Bir də əgər ittiham əsassızdırsa, bunu faktlarla sübuta yetirim. Ondan o yana mənim aidiyyətim yoxdur.

***- Bu günə qədər müvəkkilinizə qarşı prosessual pozuntular olub?***

- Hələ ki yoxdur. Prosessual pozuntular olanda vəsatətimi verirəm.

***- Belə məlumatlar vardı ki, Akif Çovdarov həbs olunanda əlinə qandal vurulmasına etiraz edib. General olduğunu deyib, buna etiraz səsini qaldırıb...***

- Bu məlumat düz deyildi. Yazdılar ki, Bakı Apelyasiya Məhkəməsində belə bir məsələ olub, deyib ki, mən generalam. Belə bir şey olmamışdı. Biz ümumiyyətlə apelyasiya şikayəti verməmişdik.

***- Niyə verməmişdiz?***

- Bilirdik ki, mətbuat gələcək, gəlib şəkil çəkəcəklər. Artıq suallar olacaq. Əvvəlcədən onu da bilirdik ki, həbs qərarının dəyişdirilməsi üçün verəcəyimiz apelyasiya şikayəti təmin olunmayacaq. Bu mənasız bir iş idi, mətbuat gəlib çəkəcək. Ona görə də apelyasiya şikayəti vermədik.

***- Bu hüququnuzdan istifadə etmək fikriniz var?***

- Artıq müddət ötüb, apelyasiya şikayəti verə bilmərik.

***- Mətbuatda Akif Çovdarovun adı daim çəkilib, mətbuatın onun fotosunu çəkəcəyi nəyi dəyişəcəkdi?***

- İstəmədi ki, onu belə çəksinlər.

***- Akif Çovdarovun adı mətbuatda "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun qətlində, "Azadlıq" qəzetinin əməkdaşı Aqil Xəlilin döyülməsində, Eynulla Fətullayevin şərlənərək həbs olunmasında və digər çeşidli cinayət olaylarında "baş qəhrəman" kimi çəkilib.***

- Mən bu məsələlərlə bağlı nəsə demək istəmirəm.

***- Jurnalistlərin öldürülməsi, döyülməsi, şərlənərək həbsi ilə bağlı epizodlar araşdırılırmı?***

- Bu günə qədər araşdırma predmeti deyil. Sonra nə olacaq deyə bilmərəm.

***- Dediniz ki, günlərlə iş üzrə zərərçəkənlərlə üzləşdirmələr keçirilir. Akif Çovdarov həmin zərərçəkənlərə qarşı törətdiklərini təsdiqləyir?***

- Mən iltizam vermişəm. Ona görə də hər şeyi danışa bilmərəm. İş məhkəməyə gedəndə hamı görəcək ki, hansı işlərdən söhbət gedir.

***- Akif Çovdarovu vəzifə səlahiyyətlərindən sui-istifadədə ittiham edirlər. Konkret nədə ittiham olunub? Vəzifəsini aşıb kimisə dinləyib, yoxsa kimlərisə qanunsuz həbs edib?***

- Akif Çovdarovun qanunsuz dinləmələrə aidiyyəti yoxdur. O, dinləmə idarəsinin rəisi olmayıb ki... digər ittihamlardır.

***- Akif Çovdarov necə hesab edir, ittihamlar əsaslıdır?***

- Mən bu haqda nəsə demək istəmirəm. Akif Çovdarov həbs olunan ilk vəzifəli şəxs deyil ki... Ondan vəzifəcə qat-qat artıq olan şəxslər həbsdə olub.

***- Onun sağlıq durumunda problemlərin olması haqda məlumatlar vardı. Necədir Akif Çovdarovun durumu?***

- Bununla bağlı nəsə deməyib. Deməsə də, bunun da səbəbi var.

***- Adətən həbsə alınanlar həkimsizlik problemindən şikayətlənirlər. Müvəkkiliniz vaxtı-vaxtında həkim xidmətindən istifadə edə bilir?***

- Şikayəti yoxdur. Hazırda sağlığında kifayət qədər problemləri var, özü də çox böyük problemlərdir. Bununla bağlı sənədləri istintaqa da, Penitensiar Xidmətə də təqdim etmişəm. Bilirlər, məlumatlıdırlar.

***- Müvəkkilinizin ağır şəkər xəstəsi olması haqda xəbərlər vardı.***

- Şəkər deyil, onun xəstəliyinin yanında şəkər elə-belə şeydir. Dərinə getməyin, verdiyiniz suallara cavab verə bilmirəm. Əgər mənə nə vaxtsa deyilsə ki, çıx mətbuata sağlığımla bağlı açıqlama ver, onda bu haqda danışarıq.

***- Akif Çovdarov kamerada tək saxlanılır?***

- Yox, onunla digər şəxs də saxlanılır.

***- Həmin məhbus da MTN əməkdaşıdır?***

- Yox, həmin şəxs MTN işçisi deyil. Bildiyim qədər MTN işində tutulanlar iki nəfərlik kameralarda saxlanılır. Amma heç biri MTN-dən olan təqsirləndirilənlə birgə saxlanılmır.

***

Fevralın 22-də ləğv edilmiş Akif Çovdarovun barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti artırılıb.

"Trend"in məlumatına görə, Səbayel Rayon Məhkəməsinin qərarı ilə A.Çovdarov barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti 3 ay uzadılıb.

Xatırladaq ki, A.Çovdarova qarşı Cinayət Məcəlləsinin 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə, bu Məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə), 311.3.1 (Rüşvət alma (passiv rüşvətxorluq), qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən), 311.3.2 (Rüşvət alma (passiv rüşvətxorluq) təkrar törədildikdə), 311.3.3 (Rüşvət alma (passiv rüşvətxorluq) külli miqdarda törədildikdə), 311.3.4 (Rüşvət alma (passiv rüşvətxorluq) hədə-qorxu tətbiq olunmaqla törədildikdə) və 145.3-cü (Qanunsuz azadlıqdan məhrum etmə, iki və ya daha çox şəxsə qarşı törədildikdə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə; yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə; bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə; zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə; silahdan, yaxud silah kimi istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə, bu əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddələri ilə də cinayət işi açılıb.

❑ E.MƏMMƏDƏLİYEV



# “Bilik test imtahanı ilə ölçülə bilməz”

## **Mikayıl Cabbarov:** “Burda qorxulu şey yoxdur və həmin standartlar həyata keçirilməlidir”

**“Hazırda test imtahanının forması əmək bazarında tələb olunan müasir, uğurlu məzunun bir sıra kompetensiyalarını ölçmək qabiliyyətinə malik deyil”. Lent.az-ın məlumatına görə, bunu təhsil naziri Mikayıl Cabbarov ANS-in “Hesabat” verilişində deyib.**

Nazirinin sözlərinə görə, test imtahanlarının forma ilə məzmunu bir-birindən fərqləndirilməlidir: “Bu imtahanın əsas üstünlüyü insan faktorundan asılılığın minimal olmasıdır. Qiymətləndirmə prosesi faktiki olaraq insan faktorundan asılı olmayaraq həyata keçirilir və bu, böyük üstünlükdür. Bununla Azərbaycan kontekstində obyektivlik təmin edilir”.

M.Cabbarov bildirib ki, digər tərəfdən, imtahanın yığcam olması, bir gün ərzində təhsil proqramının məzmununun qiymətləndirilməsi də üstünlük sayılır, ancaq təbii olaraq gələcəkdə bu sahəyə yenidən baxılmalıdır. Zəruri kompetensiyalar qiymətləndirmədə əks olunmalıdır: “Hazırkı imtahanın forması əmək bazarında tələb olunan müasir, uğurlu məzunun əldə olunması üçün bir sıra kompetensiyaları ölçmür və yaxud ölçmək qabiliyyətinə malik deyil. Nitq, ritorika, yazı vərdişlərini, hər hansı seçim variantları ilə məhdudlaşmayan düşüncə, tənqidi düşünmək tərzini özündə əks etdirən sualların olması daha yaxşı olardı”.

**O vurğulayıb ki, testin daha bir çatışmazlığı məzunun gələcəyinin, taleyinin 3 saatlıq imtahanda həll olunmasıdır:** “Və o imtahan ildə bir dəfə keçirilir. İmtahan verənlərin oxu vərdişləri, yazı, fikri ifadə edə bilmək vərdişləri ilə bağlı imtahan sisteminin tətbiqi istiqamətində TQDK sədri Məleykə Abbaszadə ilə faydalı müzakirələr gedir. Növbəti 2-3 ildə test imtahanının formasında dəyişiklik gözlənilməsə də, sonrakı dövrdə həm forması, həm də məzmunu dəyişilməlidir. 3-4 il ərzində ali təhsil müəssisəsini bitirən tələbənin bilikləri testlə ölçülə bilməz. Onların biliklərinin qiymətləndirilməsi üçün yeni alətlər lazımdır və hazırda yeni qiymətləndirmə standartları ilə bağlı fəaliyyət həyata keçirilir. Burda qorxulu şey yoxdur və həmin standartlar həyata keçirilməlidir. Sadəcə, belə bir qərar bir gün, ya bir il ərzində qəbul oluna bilməz”.

**Keçmiş təhsil naziri Firidun Cəlilov modern.az saytına açıqlamasında deyib:** “Biz test sistemini tətbiq edəndə nəzərdə tutmuşduq ki, bir neçə ildən sonra, işlər qaydasına düşəndə o üsul ləğv olunmalıdır, ümumiyyətlə, imtahan ləğv edilməlidir”.

**Keçmiş nazir eyni zamanda indiki şəraitdə test sisteminin ləğvi ilə rüşvətlə oxuyanların sayının artacağını vurğulayıb:** “Təbii ki, pulla övladlarını oxutmaq istəyənlər olacaq. Amma irəli getmək lazımdır”.

**TQDK-nın keçmiş sədri Vurğun Əyyub təhsil nazirinin imtahanların keçirilməsi barədə qərar vermək səlahiyyətinin olmadığını qeyd edib:** “Azərbaycanın indiki şəraitində tələbə qəbulunda başqa sistemin tətbiqi mümkün görünmür. Tələbə qəbulunun Təhsil Nazirliyinə verilməsi və ya tələbə qəbulunu aparan təşkilatın nazirliyin tərkibində olması tamamilə yanlış addım olardı”.

**Bununla yanaşı, test sisteminin də ideal olmadığını bildirən V.Əyyub onu da əlavə edib ki, test bugünkü reallığımız üçün hələlik ən uyğun variantdır:** “Biz test sistemini yaradarkən birinci il olduğu üçün vaxtımız az idi. Bu səbəbdən qəbul imtahanlarını bir mərhələdə keçirdik, ancaq sonrakı illərdə imtahanları iki mərhələli etmək fikrində idik. Birinci mərhələdə şagirdlərin bilik səviyyəsi yoxlanacaqdı. İkinci mərhələdə isə şagirdlərin seçdiyi ixtisaslar üzrə imtahanlar götürüləcəkdi. Bunu 20 ildən çoxdur ki, deyirik, təəssüf ki, diqqət yetirən yoxdur”.

# Səfir Sekuta ABŞ-Azərbaycan münasibətlərinə dair məqalə yazdı

## “ABŞ-Azərbaycan münasibətləri: Sabit və firavan gələcək naminə ortaq məqsədlər”

**ABŞ-ın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Robert Sekuta ABŞ-Azərbaycan münasibətləri mövzusunda məqalə yazıb. Həmin məqaləni səfirliyin mətbuat xidməti ölkə mediasına, o cümlədən də musavat.com-un elektron ünvanına göndərib. Hörmətli səfirin məqaləsini dərc edirik.**

***

Bir il əvvəl mən Azərbaycana ABŞ-ın təyin olunmuş səfiri kimi Prezident Əliyevə öz etimadnaməmi təqdim etmək şərəfinə nail oldum. Təqdimatdan sonra Azərbaycan rəsmiləri ilə ilk keçirdiyim görüşlərdən birində mənə “biz dostuq, yoxsa yox” sualı veriləndə, mən dərhal “bəli” cavabını vermişdim. Lakin bu sual mənə insanlar arasında olduğu kimi, ölkələr arasında da olan münasibətlərin davamlı qayğı və diqqətə ehtiyacı olduğunu xatırladır.

Son bir ildə Azərbaycanda gördüyüm işlər barədə fikirlərimi bölüşmək, ABŞ və Azərbaycan arasında münasibətlərin necə inkişaf etdiyini nəzərdən keçirmək istərdim.

Bu bir il ərzində mən Azərbaycanın təbii gözəlliyini, cazibədar tarixini və mədəni ənənələrini öyrənməkdən həzz aldım. Mən və həyat yoldaşım Azərbaycanın çox guşələrinə səyahət edərək, tanınmış və o qədər də tanınmamış yerlərini kəşf etdik.

Qobustanda qədim qayaüstü təsvirləri və Şəkidəki Xan Sarayını seyr edərkən və ya Azərbaycanın bölgələrində gəzərkən hiss edirdim ki, görüləsi və öyrəniləsi çox şeylər var. Etdiyim səfərlər mənə azərbaycanlılarla ünsiyyətdə olmaq, insanların fikirlərini və gözləntilərini öyrənmək üçün gözəl imkanlar yaratmışdır. Mənə ən çox təsir edən görüşlər sırasında məcburi köçkün icmalarında keçirdiyim görüşlər olub ki, orada insanların evlərindən didərgin düşmələrinin acı və ağrısı barəsində öyrənmişəm.

Keçirdiyim görüşlər mənə insanları daha çox düşündürən məsələlər, dövlətin inkişaf etdiyi istiqamətlər və həmçinin insanların Birləşmiş Ştatlar barəsində olan fikirlərini öyrənməyə kömək etmişdir.

Dəfələrlə qeyd etdiyim kimi, təhlükəsizlik, demokratiya, və iqtisadiyyat-enerji sahələri ABŞ və Azərbaycan arasında olan münasibətləri təşkil edən üç önəmli sahədir.

Sözügedən sahələr bir-biri ilə sıx bağlı olduğuna görə onların heç biri digərini üstələyə bilməz. Sağlam iqtisadiyyat ölkənin təhlükəsizliyinin əsasıdır. Yalnız qanunun aliliyinin və insana hörmətin təmin olunduğu cəmiyyətdə tam iqtisadiyyat potensialı əldə etmək mümkündür. Demokratik cəmiyyətlər isə vətəndaşların təhlükəsizliyi qorunanda çiçəklənə bilər. Sözügedən bu amillər Azərbaycanın uzunmüddətli sabitliyi və firavanlığı üçün zəruridir.

ABŞ həmişə Azərbaycanın davamlı sabitliyini və firavanlığını dəstəkləyib.

Üstəlik, amerikalılar Azərbaycanla davamlı və uzunmüddətli münasibətlər arzusundadırlar və həmişə azərbaycanlıların yanındadırlar. Sabit və firavan Azərbaycan istər terrorçuluğa qarşı mübarizə, istər mövcud ticarət və iqtisadiyyat dəhlizlərinin inkişafı və eyni zamanda yeni dəhlizlərin yaradılması, istərsə də qlobal enerji mənbələrinin və dəhlizlərinin sabitliyinin qorunması və diversifikasıyası kimi fəaliyyətlərdə bölgədə və dünyada sabitlik və firavanlığın əldə olunmasında önəmli rol oynayır. Qeyri-müəyyən bir zamanda sürətli dəyişikliklər dövrünü yaşayan bölgədə yerləşən və sabitliyi ilə seçilən Azərbaycanın rolu həmişəki kimi önəmlidir. Sabitliyin və firavanlığın gücləndirilməsi ABŞ-ın Azərbaycanla olan münasibətlərinin vacib aspektlərindən biridir. Lakin son 25 ildə Azərbaycan dəyişdikcə daha çox tərəqqi əldə etdikcə, və yeni çağırışlarla üzləşdikcə biz də öz yanaşmamızı dəyişirdik. 25 il öncə bizim yardımımız əsasən münaqişə içində olan Azərbaycana göstərdiyimiz humanitar yardımlardan ibarət idi. Bu gün isə biz azərbaycanlılarla birgə işləyərək qadın və gənclərin biznesdə uğur qazanmasına və ölkənin kənd təsərrüfatı və digər sahələrini inkişaf etdirərək iqtisadiyyatın diversifikasiyasına təkan vermələrinə kömək edirik. ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAİD) layihəsi olan Sosial İqtisadi İnkişaf Fəaliyyəti (SEDA) proqramı vasitəsilə biz Azərbaycan hökuməti ilə birgə işləyərək icmalar səviyyəsində həyata keçirilən layihələri dəstəkləyirik. Sözügedən layihələr çərçivəsində yerli hökumət nümayəndələri, vətəndaşlar və qeyri-hökumət təşkilatları bir araya gələrək icmaların üzləşdikləri məsələləri aşkarlayır, onları həll edirlər. Ümumilikdə 59 layihə tamamlanıb ki, onların bir neçəsinin sayəsində kəndlər içməli su ilə təmin olunmuş, 52 icmada yolların bərpası və tibb klinikalarının inşası həyata keçirilmişdir. Son üç il ərzində 85,000 -dən çox azərbaycanlı layihələrdən yararlanaraq gələcəkdə yerli hökumət nümayəndələri ilə tərəfdaşlıq çərçivəsində öz sosial və iqtisadi problemlərini ünvanlamaq bacarığını əldə etmişlər.

ABŞ hökumətinin digər qurumları da sözügedən sahədə fəallıq göstərir. Bərdə və Ağcabədidə yerləşən məcburi köçkün qəsəbələri də daxil olmaqla, çoxsaylı icmalar ABŞ hərbisinin Avropa Komandanlığının su təchizatı və məktəblərin bərpası proqramından yararlanmışdır. Birləşmiş Ştatlar 1993-cü ildən bəri məcburi köçkünlərə yardım məqsədilə 115 milyon dollar ayırmış və bu gün də biz Azərbaycan cəmiyyətinin bu təbəqəsi ilə işləmək öhdəliyimizə sadiq qalırıq. Eyni zamanda biz Minsk Qrupu prosesi vasitəsilə işləmək və bütün qaçqın və məcburi köçkünlərə evlərinə qayıtmaq imkanı yaradan Dağlıq Qarabağ münaqişəsinin davamlı həllini əldə etmək öhdəliyinə də sadiq qalırıq. Dağlıq Qarabağ münaqişəsinin həlli həm Azərbaycanda, həm də bölgədə firavanlıq və sabitliyin daha çox güclənməsinə təkan verəcək.

Sülh Korpusu, təhsil sahəsində verilən təqaüdlər, ingilis dili təlim proqramları da daxil olmaqla, ABŞ-ın dəstəklədiyi proqramlar sayəsində bir çox azərbaycanlılar ölkələrinə yardım etmək üçün müxtəlif bacarıqlar əldə etmişlər. Müxtəlif mübadilə proqramlarında iştirak etmiş 5,000-dən çox məzun, dövlət və özəl sektorun müxtəlif sahələrində çalışaraq, öz bilikləri sayəsində Azərbaycanın biznes, dövlət idarəçiliyi və sosial təminat sahələrini gücləndirirlər. Həmçinin 2015-ci ilin Avropa Oyunlarının uğurlu keçirilməsi üçün ABŞ-ın mübadilə proqramlarında iştirak etmiş çoxsaylı məzunlar könüllü kimi öz töhfələrini veriblər. Ümumilikdə, ABŞ 1992-ci ildən bəri Azərbaycana 1,3 milliard dollar yardım etmişdir və bu sahədə işlər davamlı inkişaf etdirilir.

Amerikanın Azərbaycanla bağlılığı yalnız hökumətlə əməkdaşlıqla məhdudlaşmır. ABŞ şirkətlərinin fəaliyyəti və maraqları firavanlığın və sabitliyin inkişafında və həmçinin bizim dostluğumuzun gücləndirilməsində böyük rol oynamışdır. Keçən il ABŞ-ın 14 böyük şirkətinin nümayəndələrindən ibarət olan ticarət missiyasının Azərbaycana uğurlu səfəri Azərbaycanın iş dairələri ilə əlaqələrin yaradılmasına və dövlətlər arasında olan vacib iqtisadi əməkdaşlığın daha da güclənməsinə təkan vermişdir. Azərbaycanda çoxsaylı Amerika şirkətləri fəaliyyət göstərərək iqtisadiyyata təkan verir və yeni iş yerləri yaradır.

Biz həmçinin demokratik inkişaf sahəsində də fəaliyyətlərimizi davam etdiririk.

ABŞ da daxil olmaqla, bütün demokratik dövlətlər daimi



inkişafdadır. Vacib amil ondan ibarətdir ki, biz daimi olaraq qazandığımız uğurları nəzərdən keçirməli, ictimaiyyətlə, inkişaf yollarını açıq müzakirə etmək bacarığına malik olmalıyıq. Uzunmüddətli sabitlik, tərəqqi və uğurun əldə olunması üçün məsul hökumət və qanunun aliliyi kimi demokratik prinsiplər vacib şərtdir. Dünyanın digər dövlətləri kimi, Azərbaycanın qlobal iqtisadi böhranla üzləşdiyi bir vaxtda, korrupsiya da daxil olmaqla, iqtisadi inkişafa maneə yaradan məsələlərin ictimai müzakirəsi Azərbaycanın daha güclü, sabit və firavan olması üçün vacib rol oynayır.

Fürsətdən istifadə edərək mən Azərbaycana təhlükəsizlik sahəsində, xüsusilə bölgədə təhlükəsizliyin təminatı üçün gördüyü işlərə görə təşəkkür etmək istəyirəm. Azərbaycan Əfqanıstanda nəqliyyat dəhlizləri və sülhməramlı əməliyyatları dəstəkləməklə, ABŞ və NATO ilə vacib tərəfdaşlıq edir. Ələt portu vasitəsilə Çin, Mərkəzi Asiya və Avropaya yüklərin uğurla daşınması Azərbaycanın vacib bir nəqliyyat mərkəzinə çevrildiyini nümayiş etdirir. Bu kimi vacib fəaliyyətlər bölgədə Yeni İpək Yolunun reallaşması istiqamətində vacib addımlardır. Yeni İpək Yolu qədimdə olduğu kimi, sahibkarlığın, innovasiyaların və fərdi yaradıcılığın inkişafına təkan verəcək. Azərbaycan həmçinin qlobal terrorçuluğa qarşı mübarizədə önəmli tərəfdaşdır və tarixi və güclü etnik və dini tolerantlıq ənənələrinə görə digər dünya ölkələri üçün bariz nümunədir.

Yekunda onu demək istəyirəm ki, dostlar birgə maraqları, dəyərləri və məqsədləri paylaşır. Dostluq yolunun enişli və yoxuşlu olmasına baxmayaraq dostlar bu yoldan heç bir vaxt dönmürlər. Həqiqi dost öz dostunun uğurlarına sevinən, ona mübarizəsində yardımını əsirgəməyəndir və o, həmişə dostuna qarşı səmimidir. Düşünürəm ki, bütün bunlar ABŞ-ın Azərbaycanla münasibətlərinə şamil oluna bilər. “Biz dostuq yoxsa yox” sualına “bəli” cavabını Azərbaycanın Sovet İttifaqından sonra müstəqil olduğu 25 ilin hər birinə şamil etmək olar. Əminəm ki, gələcək 25 ildə və ondan sonrakı dövrdə də bu sualın cavabı “bəli” olacaq.

YENİ MÜSAVAT
N 42 (6363) 23 fevral 2016

**Bir müddət öncə Ümid Partiyası sədrinin gənclərlə iş üzrə müavini təyin olunmuş Xanlar Abbasov Kanal13 internet televiziyasına videomüsahibə verib. Ümid Partiyasının mətbuat xidməti həmin videomüsahibənin yazı variantını oxuculara təqdim edir:**

# "Siyasiləşmiş gəncliyi olan ölkənin gələcəkdə idarəetməsi daha güvənli olacaq"

## Xanlar Abbasov: "Hökumət onun siyasətini dəstəkləyən gənclərə sahib çıxır, digər gənclər isə sanki ölkə vətəndaşları deyil"



***- Ümiddə yeni deyilsiniz. Yenidən Ümid Partiyasında gənclər işinin təşkilinə rəhbərliyə qayıtdınız. Nə kimi yeniliklər nəzərdə tutmusunuz?***

- Partiya strukturlarında bu və ya digər şəkildə uzun illərdir fəaliyyət göstərirəm. Müxtəlif dönəmlərdə həm Gənclər Təşkilatında sədr kimi, həm Ali Məclisin üzvü kimi fəaliyyətimi davam etdirmişəm. Sonra işlərimin çoxluğu ucbatından bir qədər idarəetmədən kənar qalmışdım. Məclis səviyyəsində fəaliyyət göstərirdim, siyasətə o şəkildə Ümid Partiyasında qatqı verirdim. Bu gün daha çox işləməyə ehtiyac duyulur. Çünki həm regionda baş verən hadisələr, həm Azərbaycanın özünün problemlərlə üz-üzə qalması siyasətin dinamikliyini, xüsusilə yeni nəslin dinamikliyini artırmağı bizdən tələb edir. Buna görə də bir təcrübəli gənc kimi, təcrübəli partiya işini bilən biri kimi partiya sədri də, partiyanın rəhbər orqanları da mənə etimad göstərdi və bu işi yenidən qurmağımı istədi.

***- Komandanız varmı? Gənclərlı bağlı strategiyanız nədir?***

- Biz qruplar komandası deyil, vahid komandayıq. Partiyada istər yaşından asılı olmayaraq gənclik, istər orta nəsil, istərsə də yaşlı nəsil hamımız bir siyasətin - Ümid siyasətinin arxasınca gedirik və bu qruplara bölünmənin özü yaxşı tendensiya olmadığına görə biz çalışırıq ki, vahid orqanizm kimi fəaliyyət göstərək və bölünməyək. Komandamız var, bəli. Bu komanda fərd olaraq Xanlar Abbasovun komandası deyil, bura Ümid Partiyasının siyasi kursunu dəstəkləyən gənclər komandasıdır. Düzdür, gənclər qolu partiyada digər strukturlara nisbətən daha azad hesab olunur. Bu baxımdan da Gənclər Təşkilatı özü konfrans keçirir, sədr seçir. Gənclər siyasəti anlayışını da partiya siyasətindən ayrı anlayış kimi qəbul etmirik. Sadəcə yeni nəslin təfəkkür və düşüncəsi, istək və arzuları, Azərbaycanın gələcəyinə sahib çıxa biləcək anlamda imkanları geniş olduğuna görə gəncləşmənin özü zamanın diktəsidir. Çünki 3-5 ildən sonra bu gənclik fəhləsi fəhlə, prezidenti prezident kimi ölkəni təhvil alacaq. Bu nəslin adamlarıdır, hətta partiyamızı da sabah gənclik təhvil ala bilər, sədrdən təhvil alacaq və ona görə də bu insanlar burda yetişməlidir. Sadəcə, biz bir orqanizm kimi, müasir zamanın tələblərinə uyğun olaraq siyasət sərgiləyib ortaya qoyacağıq. Komandamız da yaşından asılı olmayaraq Ümid komandasıdır amma mənim vəzifəm gənclər üzrə müavin kimi daha bacarıqlı və yeni, dünyanın tələblərinə uyğun gəncləri partiya sıralarına cəlb etməklə onun partiya rəhbərliyində və idarəçiliyində öyrənmək və öyrətmək, idarə olunmaq və idarə etmək baxımından istiqamətləndirmək lazımdır. Hesab edirəm ki, bu işimin öhdəsindən layiqincə gələcəyəm.

***- Ölkədə gənclərlə bağlı siyasət sizi qane edirmi?***

- Ölkə gəncliyi əslində qruplaşmış gənclikdir. Hökumət özünə, hakimiyyətə yaxın, onun siyasətini dəstəkləyən gənclərə, insanlara sahib çıxmış kimi görünür, digər gənclik isə sanki ölkə vətəndaşları deyil. Bu ayırıcı siyasətə son qoymaq lazımdır ilk növbədə. Məhz elə bu siyasətin nəticəsi olaraq da gəncliyin böyük bir hissəsi özünü siyasətdən ya kənarda saxlayıb, ya da uzaqlaşdırıb. Əslində bütün dönəmlərdə siyasətin aparıcı qüvvəsi, avanqardı məhz gənclik olub. Ölkənin problemlərinə və özünün gələcəyinə ən çox gənclər sahib çıxmalıdır. Bu olmadıqca problemlərimizin zamanla daha böyük, daha ağır formada qarşımıza çıxacaq. Görünən də bu ki, biz həll etmədikcə, kimsə həll etməyəcək və bunun da yolu siyasətdən keçir. Siyasiləşmiş gəncliyi olan ölkənin gələcəkdə idarəetməsi daha güvəni olacaq. Uzun müddət ölkədə siyasi mühit çox acınacaqlı vəziyyətdə idi. Həm hakimiyyətin aqressiv yanaşması, həm müxalifətin uzunmüddətli uğursuzluğu xalqı siyasi partiyadaşlardan və proseslərdən kənarlaşdırdı. İqtidarın gənclər siyasətindəki mövqeyi, əks fikirli gənclərin təqiblərə məruz qalması, həbsi gəncliyi də siyasi proseslərdə ehtiyatlı davranmağa, seyrçi qalmağa vadar etmişdi. Amma bu gün ölkədə yaranmış iqtisadi böhran və bunun nəticəsi olaraq sosial vəziyyətin hər gün ağırlaşması siyasi səhnədə aktivlik yaratmaqdadır. İnsanlar da anlayır ki, onların sosial və iqtisadi problemləri siyasi idarəetmədəki yanlışlıqlardan qaynaqlanır. Mən hakimiyyət kimi düşünməyə bilərəm, hakimiyyətin siyasətini tənqid edə bilərəm, ona rəqib olmuş komandanın siyasətini sərgiləyə bilərəm, amma Gənclər və İdman Nazirliyinin, o cümlədən də hakimiyyətin, iqtidarın ixtiyarı yoxdur ki, mənə qarşı fərqli, ayırıcı münasibət göstərilsin. Hökumətin vəzifəsi bütün ölkəni idarə etməkdir. Ona tapşırıq, görəv verilməyib, konstitusiyayla onun üzərinə vəzifə də qoyulmayıb ki, ancaq Yeni Azərbaycan Partiyasının gəncləriylə və yaxud sənin siyasətini dəstəkləyən adamlarla işləyəcəksən. Bu istiqamətdə həm gənclər haqqındakı qanunda kifayət qədər boşluqlar var, həm hökümətin həmin gənclər haqqında qanunun icrası baxımından çox qüsurlu nüanslar var. Bu istiqamətdə təkliflərimiz olacaq, gənclər siyasətinin yeniləşməsi və gənclər haqqında qanuna da özəl təkliflərimiz olacaq. Bununla bağlı da işləyəcəyik, mətbuata da bu barədə öz proqramımızı təklif edəcəyik. Ən başlıcası isə biz bütün gəncliyə, bütün Azərbaycan gəncliyinə bir mesaj verəcəyik ki, biz bu gün Ümid Partiyasının gəncləriyik. Biz hakimiyyət partiyası olanda Azərbaycan gənclərinin siyasətini gerçəkləşdirən və onlara sahib çıxan komandanın formalaşmasını istəyirik, bu ayırıcılıq və siyasi xətt üstünlük təşkil etməyəcək. Ən başlıcası budur ki, biz ideologiyaları rədd edən bir siyasi təşkilatıq, nümayəndələrik. Biz heç kimi ideoloji çətir altında birləşdirmirik. Biz Azərbaycanı sevən və hüquqi dövlət anlayışını qəbul edən müasir dünyanın , 21-ci əsrin qəbul etdiyi hüquqi dövlətin formulu anlayışını hər bir azərbaycanlını yaşam tərzindən, düşüncəsindən, baxışından, yerindən asılı olmayaraq, öz sıralarımızda görürük, bir cərgədə addımlamağı bacarırıq. Hesab edirik ki, Azərbaycan çətirinin altında düşüncə və yanaşmalarından, həyat tərzi və məişətindən asılı olmayaraq hər bir gəncə yer var. İstər müxalif olsun, istər siyasi düşüncələri fərqli olsun. Yetər ki, Azərbaycanı sevsin və hüquqi dövlət anlayışını bir fəlsəfə olaraq qəbul edə bilsin. Ona görə də müasir Azərbaycanda Yeni Azərbaycan Partiyasının, Azərbaycan iqtidarının xətti ilə idarə olunan gənclər siyasətini çox qüsurlu siyasət hesab edirik, Qeyri Hökumət Təşkilatları fonunda da bu ayırıcılığın nümunələrini görürük, bir qrup gənclərə xüsusi qayğılar, Dövlət Dəstəyi Şurasının ayırdığı qrantlar, müxalifətdə olan, ümumiyyətlə bu düşərgəyə yaxın qoyulmaması, layihələrinin keçməməsi və sair bütün bunlar hamısı göstərir ki, ümumiyyətlə bu siyasət əslində bütövlükdə ölkə siyasətində aparılan xəttin bir tərkib hissəsidir və yanlış xəttdir. Biz də bütövlükdə ölkə siyasətinin dəyişməsini arzulayırıq.

***- Partiya olaraq gənclər siyasətilə bağlı konkret layihəniz varmı?***

- Bunun üzərində işləyirik. Bu bir gün ərzində təqdim olunan layihə deyil, geniş bir layihə üzərində işləyəcəyik. Problemləri gənclərin özləri ilə işləyəcəyik, müzakirə edəcəyik, gənclərin özləri ilə bu məsələlərin hamısına toxunacağıq. Hesab edəcəyik ki, gənclik təkcə bizim düşüncəmizdən və yaxud da bizim partiyada olanların düşüncəsindən ibarət deyil. Dəyirmi masada biz bunu ümumi gəncliyin məhsulu kimi təqdim etməyə çalışacağıq, müxtəlif gənclər təşkilatları və yaxud siyasi partiyalarda olan gənclər qolunu bu proqramın işlənməsinə cəlb edəcəyik. Əlbəttə, təbii ki, biz öz variantımızı təqdim edəcəyik, öz variantımızın üzərində təkmilləşdirmə işinin aparılması istiqamətində onlarla da ciddi əlaqə saxlayıb, vahid bir gənclik siyasəti ortaya qoyacağıq.

---

**BMT İnkişaf Proqramının 2012-ci il üzrə hesabatında verilən məlumatlara əsasən, əhali arasında qadınların 67%-i, kişilərin 77%-i işlə təmin edilib. Bu zaman qadınların orta əmək haqqı kişilərinkinin cəmi 44%-ni təşkil edir . Bu əyrilik qadınların, bir qayda olaraq, kiminsə himayəsində olduğu haqqında geniş yayılmış fikirlə "izah" edilir. Lakin əmək haqqındakı fərq iş yerində gender bərabərsizliyinin yeganə əlaməti deyil. Statistikaya görə, qadınlar daha az rəhbər vəzifələr tuturlar; yəni dövlət sektorunda 22% və özəl sektorda cəmi 5% .**



**Həcər ABBASLI**
**Ümid Partiyası sədrinin Gender məsələləri üzrə müavini**

# Ana övladlarını cinsi əlamət üzrə fərqləndirmədən tərbiyə etməlidir

Qadının mövqeyini ailədə ənənəvi vəzifə bölgüsü prizmasından qiymətləndirmək olar. Məlumdur ki, Azərbaycanda qadın əsasən həyat yoldaşı və ana kimi özünü göstərir. Bundan əlavə, Azərbaycanda qadınlarda ümumi təhsil səviyyəsində çatışmazlıq hiss edilir. Gənc qadınlar arasında təhsil çatışmazlığı bərabərsizliyin əsas səbəbidir. Kamil insan olduqca, onlar tək iş yerində deyil, bütövlükdə cəmiyyətdə də bərabərsizliklə qarşılaşırlar. Təhsil səviyyəsinin qeyri-adekvatlığı onlar üçün qərar qəbul etməyi tələb edən vəzifələrin əksəriyyətini əlçatmaz edir.

Analar özləri çox vaxt gender bərabərsizliyi vərdişlərini gənc nəslə ötürürlər. Onu dəyişdirmək üçün ana övladlarını bərabər əsaslarla, cinsi əlamət üzrə fərqləndirmədən tərbiyə etməlidir. Biz özümüzü elə aparırıq ki, sanki oğullarımız ev işlərini görə bilməz. Eyni zamanda, qızlarımızın onlara yemək verməsini, paltarlarını yumasını normal hesab edirik. Belə uşaqların yaşa dolanda bir-birinə bərabər münasibət bəsləyəcəyini necə gözləmək olar?

Məlumdur ki, neft-qaz sektoru Azərbaycanda ÜDM-n 48,7%-ni təşkil edir (2011-ci il) . Lakin qadınlarımızın bu sektorda iştirak payı məhduddur, cəmi 10% . Nazirlər Kabinetinin 20 oktyabr 1999-cu il tarixli 170 №-li Qərarı ilə zərərli və ağır şəraitlə əlaqədar (əsasən sənaye və kənd təsərrüfatında) qadın əməyinin tətbiqi qadağan edilir . Belə qərar müsbət hüquqpozma prinsipi üzrə qəbul edilib.

Qadınlar səhiyyə və əhalinin sosial müdafiəsi (76,5%), təhsil (67,7%) kimi sektorlarda üstünlük təşkil edirlər . Lakin bu sektorlarda əmək haqqı normal həyat şəraitini təmin etmək üçün çox aşağıdır. Özəl sektorda, daşınmaz əmlak, rabitə, heyətlə iş və xidmət sektorlarında qadınlar digər sahələrlə nisbətdə daha yaxşı təmsil ediliblər. Qadınların işdə sınaq və səhvlərə görə daha az şansları var. Biz kişi cinsindən olan həmkarlarımız qarşısında özümüzü əvvəlcə qadın kimi, sonra isə rəhbər kimi təsdiq etməliyik. Özünütəsdiq imkanı tək davranışımızdan və xarici görünüşümüzdən deyil, ünsiyyət tərzimizdən də asılıdır. Səni eşitsinlər və hörmət etsinlər deyə, "mən düşünürəm" deyil, "biz etməliyik" demək lazımdır.

Qadın sahibkarlarımız çox maneələr dəf edərək nələrəsə nail olmağa çalışırlar. Hökumətin planlarına və beynəlxalq təşkilatların təşəbbüslərinə baxmayaraq, qadınların yalnız 17%-i sahibkarlıq fəaliyyəti ilə məşğuldur. Bu aşağı göstəricinin səbəbi öz biznesini başlamaq istəyənlər üçün təlim proqramlarının və treninqlərin çatışmazlığı, habelə biznes üçün ilkin maliyyələşməni alarkən kredit faizlərinin yüksək olması və digər bu kimi amillər ilə izah etmək olar. Bu sahədə aparılmış tədqiqata əsasən, kiçik və orta sahibkarlıqda qadınlar 8-14% təşkil edirlər . Qadınlar biznesə əsasən ticarət və kənd təsərrüfatı sahəsində başlayırlar, həmçinin toxuculuq məmulatlarının satışı üzrə mağazalar və estetik tibb mərkəzləri açırlar, kişilər isə əsasən tikinti və xidmət sahələrində işləyirlər. Kişilərə nisbətən qeyri-rəsmi ödənişə qadınlar daha həssasdırlar. Məsələn, qadınlar çox vaxt icazə alarkən və müəssisələrdə yoxlamalar keçirərkən, qeyri-rəsmi ödənişlər onları fəaliyyətlərindən vaz keçməsinə səbəb olur. Sahibkarlıq təşəbbüsünü məhdudlaşdıran bu amillər mütləq aradan qaldırılmalıdır.

Hətta peşəkar perspektivlər və təhsil almaq imkanları olduqda belə, gender bərabərliyinə gedən yol uzun və qeyri-müəyyən olacaq. Onun təşəkkülü üçün qadınların daşıdığı ənənəyə çevrilmiş davranış normalarını və ictimai-sosial yüklərin yenidən qiymətləndirilməsi vacibdir.

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Film kimi

Zamin HACI
zaminhaci@gmail.com

**Ayının pəncəsindən sağ çıxan Şəki sakini haqda ötən günlərdə yazmışdım, onun kinoya layiq həyatının batıb getdiyini göstərmişdim. İndi düşünürəm ki, deyəsən, bunlar hələ "jurnaldır", əsl kino qabaqdadır.**

Özü də istənilən janrda kinolar üçün material ortada batıb getməkdədir. Heç olmazsa "Elşad Abdullayev-2" də yoxumuzdur, rejissor qıtlığıdır. Nə qədər canlı kadrlar batıb gedir.

Srağagün bir İmişli sakini güllə yaraları almışdı. Sən demə, bu qardaş "Azərsun" şirkətində ekspeditor işləyir və həmin gün ərazidəki dükanlardan pulları yığıb öz avtomobili ilə qayıdırmış. Yolda kimlərsə onun avtomobilini saxladıb pulları almaq istəyiblər. Adam saxlamayıb, avtomobillə qovhaqov başlayıb, hətta bunu gülləbaran ediblər! Təsəvvür edin, sabitlik necə çiçəklənir! Heç "92-93-də" yollarımızda belə kinolar olmurdu. Atılan güllələrdən bir neçəsi ekspeditora dəysə də, yaralansa da pulları quldurlara verməyib, özünü xəstəxanaya çatdırıbdır. İndi "Azərsun"da mərifət olsa bu adama babat mükafat verməlidir. "Oskar" almasa da, barı pul alsın.

Yol polisinin avtomobilini çəkiclə darmadağın edən vətəndaşımızın videosunu da yəqin görmüsünüz. *(Bir dostumuz həmin hadisəyə yaxşı ad tapıbdır: "Dövlət maşınının dağıdılması").* Mən buna baxanda nəsə yaddaşım qımıldandı, buna bənzər kadrları hardasa gördüyümü fikirləşdim, ancaq yadıma sala bilmirdim. Srağagün tapmışam - yenə bir başqa dostumuzun köməyi ilə. Cənubi Koreya rejissoru Pak Çhan Uk-un "Oldboy" adlı gözəl filmi var. 2003-cü ildə - bizdə siyasi qırğınlar olan il səhnəyə çıxıbdır. Türkiyədə "İxtiyar dəliqanlı" adıyla tanınan bu film elə ekrana çıxdığı ildə Kann festivalının Qran-pri ödülünü almışdır. "Oldboy" qisas haqda filmdir, qisasın mahiyyətini çox gözəl izah edir. Və filmin qəhrəmanlarından birinin silahı... çəkicdir. O, çəkiclə xeyli adamı öldürür. Hətta filmin posterlərindən biri də əlində çəkic tutan həmin qəhrəmanın fotosudur. Bizim qəhrəmanın da yol polisinə hücumunun qisas olması ehtimalı var, çünki rəsmi açıqlamaya görə, adamın avtomobilini cərimə edibmişlər, bu da yaxınlaşıb ki, niyə cərimə etmisiniz, ancaq polis laqeyd yanaşıb, heç cavab verməyib.

Şimal rayonlarımızdan birində iki şəxs hamamda dəm qazından boğulub ölmüşdülər. Bu sevgililərin faciəsindən sonrakı xəbərlərdə belə detal gözümə dəydi: ehtimal var ki, onların öldüyü bina təzə tikilidir, yaşayış olmadığı üçün evə bayırdan ilan-çayan girməsin deyə mərhum gənc kişinin atası hamamın tüstü borusunun ağzını bağlayıbmış! Lakin oğul bunu bilmirmiş. Nə qədər qəribə ölümdür...

"Bizim market" adlı dükanlar şəbəkəsinin yiyəsi, deyilənə görə, qaçıb aradan çıxıbdır. Nəsə qaytarılmayan kredit söhbəti var. Ancaq maraqlıdır ki, indi bu adamdan şikayət edən əsas fiqurlardan biri doğma ... qayınanasıdır. Qayınana qəzetlərə şikayət yağdırır, deyir, yeznə rekvet edib, bizi izlətdirib və sairə. Maraqlı olan, əlbəttə, bu deyil. Ona qalsa hər gün nə qədər belə məişət davaları olur. Sadəcə, qayınananın açıqlamalarında "Bandotdel"in də adı gözümə dəydiyindən diqqətimi çəkmişdi. Sən demə, yeznə öz qohumlarını izlətdirmək üçün cinayətkar dəstə yaradıbmış. Bu dəstənin ələ keçməsi isə izləmə əməliyyatının... "Bandotdel"in yanında aparılması səbəbindən olub, çünki izlənən qohumların evi idarənin qonşuluğunda imiş! Təsəvvür edin, mütəşəkkil cinayətkarlıqla mübarizə idarəsinin polisləri diqqət ediblər ki, neçə gündür kimlərsə bunların idarəsinin qabağında maşında oturub adam güdürlər. Həmişə adam güdmək işinə baxan idarənin özünün güdülməsi mənzərəsi sırf tragikomediya janrında kino epizodu deyil, bəs nədir?

İndi söz "Azərbaycanfilm" studiyasınındır - işləmək lazımdır.

## Azərbaycanın ən yaxın qonşusu ilə münasibətlərində yeni dönəm



# İlham Əliyevin İrana kritik səfəri başlayır - 4 paytaxtın diqqəti Tehranda

### Azərbaycan prezidentindən bir gün öncə Rusiya müdafiə nazirinin Tehranda olması təsadüfdürmü? Səfər işğalçı Ermənistandan Gürcüstana qaz nəqlinin mümkünlüyü məsələsinə nöqtə qoya bilər, əgər...; Tehranın Bakıdan əsas istəyi və gözləntisi nə olacaq?

**Azərbaycan prezidenti İlham Əliyevin Tehran nəzərdə tutulan rəsmi səfərinin vaxtı açıqlandı. Səfər bu gün - fevralın 23-də başlayacaq. Tarix İranın informasiya və telekommunikasiya naziri, hökumətlərarası komissiyanın həmsədri Mahmud Vaezi ilə Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayevin Tehrandakı görüşü zamanı bəlli olub.**

"Azərbaycan prezidenti İlham Əliyev İrana geniş tərkibli nümayəndə heyəti ilə çərşənbə axşamı gələcək" - nazir bildirib. Vaezinin sözlərinə görə, səfər zamanı iki qonşu ölkə arasında bir sıra sahələrdə əməkdaşlığa dair 10-dan çox sənəd imzalanacaq. Bu sənədlər iki ölkənin müştərək komissiyasının birgə fəaliyyəti nəticəsində imzalanmağa hazırlanıb.

Vaezi onu da deyib ki, Azərbaycan İran vətəndaşları üçün vizanı ləğv etməyəcək, lakin müzakirələrdə viza rejiminin sadələşdirilməsi haqqında razılığa gəlinib və bu, icra olunacaq: **"Prezident İlham Əliyevin İrana səfəri zamanı razılaşdırılmış bütün sənədlər imzalanacaq. Bu sənədlərin imzalanması əlaqələrin inkişafına təkan verəcək"**, deyə o əlavə edib.

***

Sözsüz ki, İran və Azərbaycan mədəni və tarixi tellərlə bir-birinə sıx bağlı olan qonşu ölkələr kimi ikitərəfli iqtisadi-ticari, mədəni əlaqələri gücləndirməkdə qarşılıqlı şəkildə maraqlıdır. Ancaq prezident İlham Əliyevin İrana budəfəki səfəri regionda yaranmış yeni və olduqca mürəkkəb geosiyasi duruma, həmçinin cənub qonşumuzun beynəlxalq sanksiyalardan qurtulmasından sonrakı dövrə təsadüf etməsi ilə xüsusi əhəmiyyət kəsb edir. Bu, habelə beynəlxalq sanksiyaların ləğvindən sonra Azərbaycanla İran arasında ilk yüksək səviyyəli danışıqlar olacaq.

Gözlənilir ki, sanksiyaların ləğvindən sonra yaranan imkanlardan istifadə edən tərəflər ticari-iqtisadi əməkdaşlığı genişləndirmək yollarını müzakirə edəcəklər. Habelə İran qazının Gürcüstana nəqli planları barədə müzakirələr aparılacaq. Yada salaq ki, ötən həftə İran Ermənistan üzərindən Gürcüstana ilkin olaraq 200 milyon kubmetr qaz nəql edilməsinə dair ilkin razılaşmanın əldə olunduğunu açıqlayıb. Azərbaycan prezidentinin səfəri bu məsələyə nöqtə qoya bilər.

Şübhəsiz ki, Gürcüstana qaz nəqlinin məhz Azərbaycan vasitəsilə reallaşmasına Tehranı razı salmaq çətin olacaq. Çünki əfsuslar olsun ki, İran Rusiyadan sonra işğalçı Ermənistanın ikinci ənənəvi müttəfiqi və tərəfdaşı kimi tanınır.

***

İran səfəri çərçivəsində həmçinin öz təsirini getdikcə Azərbaycana daha güclü göstərməkdə olan Suriya böhranı və digər regional mövzuların müzakirəsi istisna olunmur. Söz yox ki, bu böhranla bağlı İran qonşu və şiə ölkəsi kimi Azərbaycandan daha aydın mövqe bildirməyi istəyəcək. Bakı isə bu məsələdə qardaş Türkiyənin mövqeyini bəlli səbəblərdən ciddiyə almaq zorundadır - İranla məzhəb birliyinə rəğmən.

Əlbəttə ki, prezident Rəcəb Tayyib Ərdoğanın Bakı səfəri baş tutsaydı, Azərbaycan prezidenti Tehrana bir çox məsələlərlə, o cümlədən Suriya, regional təhlükəsizlik, energetik məsələlərlə bağlı daha cilalanmış, aydın və güclü mövqe ilə gedəcəkdi. Çünki İran son vaxtlar Yaxın Şərq *(Suriya, İŞİD, terror, kürd)* məsələləri ilə bağlı məhz Rusiya ilə sinxron hərəkət edir, qonşu Türkiyə və Qərbin, deməli, həm də Azərbaycanın maraqlarına zidd kurs yürüdür. O üzdən Tehranda bu və başqa mövzular ətrafında rəsmi tərəflərin sərgiləyəcəyi mövqe Moskva, Ankara, Vaşinqton və İrəvan üçün də yetərincə önəm kəsb edir.

***

İranın Türkiyə və Azərbaycanla deyil, Rusiya ilə sinxron hərəkət etdiyini İlham Əliyevin səfərindən cəmi bir gün öncə Rusiyanın müdafiə naziri Serqey Şoyqunun Tehrana səfər eləməsi və burada prezident Həsən Ruhani və müdafiə naziri Hüseyn Dehqanla görüşməsi də təsdiq edir. Görüşlərdə hərbi-siyasi əməkdaşlıq məsələləri müzakirə olunub. Bundan bir neçə gün qabaq isə İranın müdafiə naziri Moskvada Putinlə danışıqlar aparmışdı.

Müdafiə nazirlərinin qarşılıqlı səfərləri şübhə yox ki, Suriya məsələsində Moskva və Tehranın mükəmməl işbirliyi və yeni planlar içərisində olması ilə yanaşı, region ölkələrinə, o cümlədən Azərbaycana mesaj, "əzələ nümayişi" təsiri bağışlayır. İlham Əliyev eyni zamanda belə bir "əzələ nümayişi" fonunda İrana yollanır.

Lakin onu da nəzərə almaq lazımdır ki, İran üzərindən sanksiyalar götürüldükdən sonra Azərbaycanın ABŞ (Qərb) üçün geosiyasi və energetik önəmi azalıb. Bu önəm Bakının Tehranla energetik sahədə, öncəliklə də İranın nəhəng qaz ehtiyatlarının Avropa bazarlarına nəqlində, habelə TANAP layihəsinin reallaşmasında Tehranla əməkdaşlıq hesabına yeni məzmun qazana bilər. İranın özü də TANAP-a qoşulmaqda maraqlı olduğunu gizlətmir.

Doğrudur, geosiyasi və geostrateji məsələlərdə iki ölkə arasında prinsipial fikir ayrılıqları var. Bunlar əsasən, deyildiyi kimi, Ermənistana dəstək, Xəzərin hüquqi statusu mövzuları və Yaxın Şərq (Suriya) böhranlarıdır. Hər üç məsələ İranın uzaqgedən köklü maraqlarından qaynaqlandığı üçün onlarla bağlı Tehranın mövqeyində ciddi dəyişiklik gözlənilmir. Əksinə, böyük ehtimalla, Tehran Bakıdan konkret olaraq İslam Koalisiyasına qoşulmamağı xahiş edə bilər - hansı koalisiya ki, İran və Rusiya əleyhinə qurum hesab edilir.

Söz düşmüşkən, sonuncu məsələdə rəsmi Bakı axır vaxtlar tərəddüddən daha çox, Türkiyəyə meyllilik göstərir. Ötən həftə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə Bakı görüşü zamanı ölkənin koalisiyaya qoşulacağını istisna eləməyib. Heç şübhəsiz, Tehranda bu bəyanatı da unutmayıblar.

***

Bütövlükdə götürdükdə Azərbaycan prezidentinin İran səfəri daha çox ticari-iqtisadi (energetik), mədəni və humanitar (tibb, dərman sahəsi) istiqamətlərdə ikitərəfli əlaqələri genişləndirmək əzminin nümayişi ilə yadda qala bilər. Geosiyasi məsələlərdə isə Bakı və Tehranın mövqeləri "mehriban rəqiblər" kimi yəqin ki, ciddi dəyişikliklərə uğramayacaq.

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 42 (6363) 23 fevral 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasında bu münaqişənin həllinə cəlb olunmuş iri dövlətlərin ikili mövqeyi müstəsna rol oynayır. Bu məsələ əlbəttə ki, yeni deyil. Bu üzdəndir ki, ABŞ, Avropa Birliyi Krımı işğala görə Rusiyaya qarşı sanksiyalar tətbiq elədiyi halda, işğalçı Ermənistana tam əksinə, loyal münasibət bəsləyir, onun iqtisadi izolyasiyadan çıxması üçün çalışır, hətta vaxtaşırı sərhədlərin açılması üçün Türkiyə və Azərbaycana təzyiqlər göstərir.**



# Azərbaycan müsəlman dövləti olmasaydı... işğal bunca uzanardımı?

## Prezident İlham Əliyevdən qlobal güclərə Qarabağ məsələsində ikili standart yanaşmaya görə sərt tənqid: "Münaqişənin uzanması həm də dini ayrı-seçkilikdən qaynaqlanır"; Rusiya amili də tormozlayıcı roldadır; **moskvalı hərbi ekspert:** "Kreml Ermənistanı Türkiyə ilə müharibə variantına hazırlayır..."

***

"1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi işğal olunub, xalqımız etnik təmizləməyə məruz qalıb, bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. İşğal olunmuş torpaqlarda bütün iqtisadi və sosial infrastruktur, mədəniyyət abidələri, o cümlədən məscidlər dağıdılıb". Bunu Azərbaycan prezidenti İlham Əliyev Tehrana səfəröncəsi İranın Radio-Televiziya Şirkətinə müsahibəsində "Qarabağ münaqişəsinin həllində Minsk Qrupunun vasitəçilik fəaliyyətini necə dəyərləndirirsiniz, münaqişənin həlli üçün İslam və region ölkələrinin imkanlarından istifadə etmək barədə fikriniz nədir" sualını cavablandırarkən bildirib.

**Prezident daha sonra deyib:** "Ermənistan BMT başda olmaqla, dünyanın aparıcı təşkilatlarının işğal altında olan torpaqların azad olunmasını tələb edən qərar və qətnamələrini yerinə yetirməkdən boyun qaçırır. Təəssüf ki, dünya birliyi bu günədək problemin beynəlxalq hüquq norma və prinsipləri çərçivəsində həllinə nail olmaq üçün Ermənistana qarşı heç bir real təsir mexanizmi tətbiq etməyib, o cümlədən münaqişənin tənzimlənməsi məqsədilə yaradılmış Minsk Qrupu həmsədrlərinin fəaliyyəti də indiyədək heç bir nəticə verməyib. Əminliklə demək olar ki, işğal faktının 20 ildən artıq davam etməsinə hazırda dünyada müşahidə olunan ikili standartlar siyasətinin də təsiri az deyil. Faktlar sübut edir ki, beynəlxalq birlik dünyanın ayrı-ayrı nöqtələrində baş verən oxşar hadisələrə selektiv yanaşma nümayiş etdirir. Bəzi hallarda işğal faktı kəskin qınanmaqla yanaşı, həm də problemin həlli üçün ciddi təsir mexanizmləri işlənib hazırlanır və qısa zamanda tətbiq edilir. Təəssüf ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə gəldikdə, passiv yanaşma müşahidə olunur və münaqişə tərəfləri - işğalçı ilə işğala məruz qalana eyni münasibət göstərilir. Bu ədalətsizlik həm də müsəlman dövləti olduğu üçün Azərbaycana qarşı nümayiş etdirilən fərqli yanaşmadan - dini ayrı-seçkilikdən qaynaqlanır. Biz beynəlxalq hüquqa bu qədər açıq hörmətsizliyi, işğalçılıq siyasətinə bu qədər aşkar bəraət qazandırmaq cəhdini anlaya bilmirik".

**Azərbaycan prezidenti həmçinin İslam ölkələrinin, o cümlədən İranın həm beynəlxalq təşkilatlar, həm də ikitərəfli çərçivədə davamlı olaraq Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini qeyd edib:** "Bunu həm ölkələrimiz arasında qardaşlıq, dostluq münasibətlərinin təzahürü, həm də İranın beynəlxalq hüququn aliliyinə münasibəti kimi qiymətləndiririk. İslam Konfransı Təşkilatının çoxsaylı qərar və qətnamələrində Ermənistanın işğalçılıq siyasəti pislənmiş və işğal faktına son qoyulması tələb olunub. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüquq norma və prinsipləri çərçivəsində həllinə yönəlmiş bütün səyləri, həmçinin İslam və region dövlətlərinin təklif və təşəbbüslərini dəstəkləyir və yüksək qiymətləndiririk. Münaqişənin ədalətli həlli sahəsində bundan sonra daha fəal dəstəyin göstəriləcəyinə inanırıq".



Alekandr Xramçixin

***

Qarabağ probleminin həllinə gizli xristian təəssübkeşliyi ilə yanaşı, Rusiya amili də eyni dərəcədə tormozlayıcı təsir göstərir (*Əfsus ki, Ermənistanın tərəfdaşı müsəlman İran da o sırada yer alıb - formal olaraq ölkəmizin ərazi bütövlüyünü tanısa da*). Təsadüfi deyil ki, əhalisi əsasən xristian olan Gürcüstan ərazilərinin işğalı da məhz bu faktora görə uzanır. Ermənistana gəlincə isə Moskva işğalçının əsas varlıq qarantı, 1 nömrəli hərbi-siyasi müttəfiqi olaraq qalır. Buna son olaylar şübhə yeri saxlamadı.

Belə ki, ötən həftə Rusiyanın 200 milyon dollar kredit həcmində işğalçı Ermənistana müasir silah-sursat verəcəyi bəlli oldu. İmzalanmış müqaviləyə əsasən, Moskva İrəvana güzəştli qiymətlərlə əlavə olaraq, aşağıdakı silahları verəcək: "Smerç" reaktiv yaylım atəşi sistemləri və onun sürsatları, "İgla-S" zenit-raket sistemləri, yerüstü radiotexniki kəşfiyyat kompleksi "Avtobaza-M", "TOS-1A" ağır odatanları, "9M113M" idarəolunan raketləri, "RPG-26" qumbaraatanları, Draqunov snayper tüfəngləri, "Tiqr" zirehli avtomobilləri, mühəndis və rabitə vasitələri.

Bu fakt Türkiyə baş naziri Əhməd Davudoğlunun Kiyevdə verdiyi bəyanatın ciddiliyini və aktuallığını yenidən ortaya qoyur, Kremlin Azərbaycan ərazilərini işğal eləmiş Ermənistanın əsas himayədarı olduğu və arxasında dayandığına şübhə yeri saxlamır. Bir daha öz təsdiqini tapır ki, Rusiya Azərbaycan ərazilərini işğal eləmiş Ermənistanın arxasında möhkəm dayanıb və onu silahlandırmaqda davam edir. Hərçənd rəsmi Moskva bunu bir qayda olaraq, Azərbaycanla hərbi balansı qorumaq niyyəti ilə bağlayır.

***

**Tanınmış rusiyalı hərbi-siyasi ekspert Alekandr Xramçixin** də bu faktı Kremlin balans yaratmaq istəyi ilə izah edir. Onun sözlərinə görə, Rusiya-Türkiyə münasibətlərinin kəskinləşməsi fonunda Kreml həm də Ankara müharibə variantında öz potensial müttəfiqini gücləndirmək hədəfi güdür.

**Azərbaycan tərəfində bu silah sövdələşməsinin narazılıq yarada biləcəyi ilə bağlı suala onun cavabı belə olub:** "Rusiya Azərbaycana da eynilə bu cür hərbi texnika, həmçinin başqa silahlardan satıb. Özü də olduqca böyük sayda. Bu, təkcə Ermənistanda deyil, həm də Rusiyada qeyri-adi təəssürat yaradıb, çünki Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür, Azərbaycan isə yox. İndi qismən də olsa, hərbi balansın bərpası baş verir".

Hərbi-siyasi ekspert son vaxtlar Moskvanın Gümrüdəki 102 saylı bazanı gücləndirməsinin səbəbinə də özünəməxsus şəkildə aydınlıq gətirib. Onun sözlərinə görə, şimal qonşumuz bununla həm Ermənistanın müdafiəsini, həm də Türkiyəyə qarşı sipəri gücləndirir.

***

Rusiyalı ekspertin də açıqlamasından görünür ki, Moskva forpost Ermənistandan "sözə baxmayan" region ölkələrinə, ələlxüsus da Azərbaycana və Türkiyəyə, eləcə də Gürcüstana qarşı hərbi sipər və şantaj vasitəsi kimi yararlanmağı hədəfləyib. Yeri gəlmişkən, Gümrüdən Tiflisə cəmi bir neçə saatlıq yoldur.

Bu üzdən Azərbaycan, Türkiyə və Gürcüstan regionda vahid xarici siyasət və ortaq müdafiə-təhlükəsizlik kursu izləmək zorundadır. NATO üzvü və regional supergüc olaraq Türkiyənin üçtərəfli hərbi-siyasi əməkdaşlıq formatlarında iştirakı bu formatlara xüsusi çəki verməklə, Rusiya-Ermənistan ittifaqının bölgəyə yönəlik təhdidlərinə qarşı güclü sipər olardı.

Avropa Azərbaycanlıları Konqresi

# Xocalı soyqırımı ilə bağlı Avropa Parlamentinə müraciət edildi

**Avropa Azərbaycanlıları Konqresi (AAK) "1992-ci ildə Xocalı sakinlərinə qarşı törədilmiş qətliamın cinayət kimi tanınması və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli"nə dair Avropa Parlamentinin İnsan hüquqları komitəsinin yeni seçilmiş sədri Elena Valensaya müraciət göndərib.**

Müraciətdə Avropa Parlamentindən Qarabağ münaqişəsinin müvafiq beynəlxalq normalara uyğun olaraq həllinə münasibət bildirməsi, 26 fevral 1992-ci ildə ermənilər tərəfindən Xocalı sakinlərinə qarşı həyata keçirilmiş soyqırım aktını müharibə zamanı törədilmiş cinayət kimi qiymətləndirməsi, həmçinin Ermənistan prezidenti Serj Sarkisyanın bu hadisələrin cinayətkarı kimi məsuliyyətə cəlb olunması tələb edilir. Bundan başqa, soyqırımın beynəlxalq ekspertlərdən ibarət komissiya tərəfindən araşdırılması, ATƏT-in Minsk Qrupuna üzv olan ölkələrin başçılarından münaqişənin həllinə və sülh əldə edilməsinə cəhd göstərmələri istənilib.

Qeyd edək ki, AAK Xocalı soyqırımını daha geniş kütlələrə çatdırmaq məqsədilə facebook sosial şəbəkəsində soyqırıma həsr olunan səhifə yaradıb. (https://www.facebook.com/KhojalyMassacre1992Photos/info?tab=page_info).

YENİ MÜSAVAT
N 42 (6363) 23 fevral 2016

**İşğala, Terrora və Əsassız İddialara qarşı Beynəlxalq Forumun Azərbaycan təmsilçilərinin Türkiyə səfəri davam edir. Səfərin növbəti günü İzmirin Qarabağlar rayonunun bələdiyyə başqanı Mühiddin Selvitopu və yerli hakimiyyət, həmçinin ictimaiyyət nümayəndələri ilə görüş keçirildi.**

# Türkiyənin Qarabağlar bölgəsində Qarabağ törənləri

## İzmirin 480 minlik bələdiyyəsinin başqanından "Yeni Müsavat"a özəl açıqlamalar

Bələdiyyə başqanı çıxış edərək iki ölkə arasında münasibətlərdən, Dağlıq Qarabağ münaqişəsindən danışdı. Bu haqq savaşında Azərbaycanla bir yerdə olduqlarını bəyan edən M.Səlfitopu Qarabağın azadlığı naminə qardaş ölkəyə gərəkən dəstəyi verəcəklərini bildirdi. Bələdiyyə sədri dedi ki, Azərbaycanla Türkiyənin qardaşlığının rəmzi olaraq, həm də Xocalı qurbanlarının xatirəsinə ehtiram nümunəsi kimi İzmirin Qarabağlar rayonunda park yaradılacaq.

Daha sonra foruma qatılan müxtəlif ölkələrin təmsilçiləri və izmirli iştirakçılar parkın yerləşdiyi əraziyə gəldi. **Bələdiyyə başqanı Muhiddin Səlfitopu** parkdakı ağacların 50-60 il əvvəl əkildiyini və bu ünvanın Azərbaycan adına gözəl bir ünvan olacağını söylədi: "Biz burada gözəl işlər görəcəyik, hələ ki sizlərə bu ünvanı tanıtmaq istədik". Onun dediyinə görə, parkın 5 hektara yaxın ərazisi var: "Mülkiyyət problemimiz yoxdur, bələdiyyənin yeridir. Biz 5 ay ərzində bu parkı abadlaşdırıb ora Azərbaycan - Qarabağ - Xocalı adını verəcəyik. Başqa bir parka da bu adı verə bilərdik. Amma düşündük ki, Qarabağ, Xocalı adına layiq olan bir ünvan olsun. Burada Xocalı ilə bağlı abidə-lövhə də qoyulacaq, Xocalıda baş verənlər həmin lövhədə əksini tapacaq. Gələcəkdə burada Xocalı qətliamı ilə əlaqədar sərgilər də keçirəcəyik. Anma günlərində bəzi sərgiləri burada keçirəcəyik. Çünki bu dava həm də bizim davamızdır".

Azərbaycan nümayəndə heyətindən bayrağımızı hədiyyə alan Qarabağlar bələdiyyə başqanı bayrağı öpərək onu minnətdarlıqla qəbul etdi. "Belə bir parkın açılmasına qərar verilməsi bizi xeyli məmnun edib. Bakı və İzmir tarixən qardaş şəhərdir. Bu qardaşlığı biz davam etdirəcəyik. İnşallah, gözəl bir Bakını da burda yaradacağıq" - deyə, iştirakçılardan biri söylədi.

**Bələdiyyə başqanı Muhiddin Səlfitopu musavat.com-a açıqlamasında öncə özünü təqdim etdi:** "Mən əslən malatyalıyam. 35 ildir burdayam. Uzun illərdir bələdiyyədə çalışıram, düz 33 ildir. 2014-cü ildə də CHP-dən namizədliyimi verdim, seçildim və bələdiyyə başqanı oldum. Zaman-zaman Azərbaycandan gələn qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə bu cür görüşlərimiz olur. Keçən il Xocalı soyqırımı ilə əlaqədar bir sıra tədbirlərimiz oldu, bu il də tədbirlərimiz davam edəcək".

**İzmirdə Qarabağlar adlı bölgənin olmasından dolayı marağımızı ifadə etdikdə, bələdiyyə başqanı bunları bildirdi:** "Bəli, buranın adı Qarabağlardır, Azərbaycanda da Qarabağımız var. Azərbaycandan gələn nümayəndə heyətləri mənə dedilər ki, başqanımız, mütləqa bizim aramızda bir bağlılıq var, bu əlaqələri inkişaf etdirək. Təbii ki, etiraz etmədik. O səbəbdən bu nümayəndə heyətini Qarabağlarda qarşıladıq və buna görə çox xoşbəxtik. Gəldiyiniz üçün sizlərə də təşəkkür edirəm. Biz Qarabağlar adını araşdırdıq. Ola bilsin ki, Azərbaycanın Qarabağına bağlılığı var. Amma başqa bir məlumata görə, bu, qara bağ mənasını verir. Burada qara üzümlə zəngin bağlar var, dünya miqyasında gözəl bir məhsuldur, süfrəlikdir. Hesab edirik ki, onunla əlaqədardır. Bu üzüm bağları 2-3 əsr əvvələ gedib çıxır. Amma burada ötən əsrin 60-cı illərindən kütləvi şəkildə yaşayış məntəqələri salınmağa başlayıb. Əslində 2014-cü ilədək Qarabağlar bir məhəllə adı idi, Konaq bələdiyyəsinə bağlı idi, rayon yaradılanda adını Qarabağlar qoydular. Qarabağlar İzmirin ən böyük rayonudur, 480 min əhalisi var. İzmirin 4 milyon 200 min civarında olan əhalisinin səkkizdə birini bizim əhali təşkil edir".









**Mühiddin Selvitopu:** "Həm Azərbaycanda, həm İzmirdə Qarabağlar adı varsa, bu, bir bağlılıqdır"

**Bununla belə, bələdiyyə başqanı dedi ki, Azərbaycanın Qarabağ bölgəsindən bura köçüb gələn insanlar da var:** "Həm Azərbaycanda, həm İzmirdə Qarabağlar adı varsa, məncə, bu, elə bir bağlılıqdır. Biz fərq qoymuruq, eyni kökdən gələn insanlarıq. Mən özüm də Xorasan köçkünü olan nəslin nümayəndəsiyəm, türkmənəm".

**Bələdiyyə başqanı dedi ki, İzmirdə çoxlu sayda millətin nümayəndələri yaşasa da, onlar arasında hər hansı problem yaşanmır:** "İzmir bir barış kəndidir. Türkiyədə ən çox sayğının, sevginin hakim olduğu bir bölgədir. Burada insanın baxışına, milli mənsubiyyətinə fərq qoyulmaz. Burada ermənilər azdır, amma yəhudi kökənli çox insan var. Onlar da özlərini izmirli kimi görürlər".

***

**Xocalı adına daha bir park İzmirin digər guşəsində açılacaq. İşğala, Terrora və Əsassız İddialara qarşı Beynəlxalq Forumun Azərbaycan təmsilçiləri həmin ünvanı da ziyarət etdi. Azərbaycan və Türkiyənin vətənpərvərlik mahnılarının səsləndirildiyi parkda duyğusal anlar yaşandı. İzmir Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyinin başqanı Mülazim Pahsa musavat.com-a dedi ki, parkın açılışı 27 fevralda baş tutacaq:** "Biz dedik ki, burada Xocalı adına bir park salmaq istəyirik. Dedik, bu, həm Azərbaycan Dostluq Parkı olsun, həm də Xocalı şəhidlərinin anma yerinə çevrilsin. Sağ olsun, bələdiyyə başqanımız Olgun Atila da üreyimizi qırmadı və bir ay ərzində bu parkla bağlı qərar verdi. "9 Eylül" Universitetinin gözəl sənətlər bölümünün müəllimi olan xocamız dedi ki, mən buranı öz hesabıma azərbaycanlı qardaşlarım üçün təmənnasız quracağam. Burada Xocalı lövhəsi olacaq. Həmçinin 3 metr hündürlükdə abidə qoyulacaq. Açılış mərasimində valimiz, millət vəkilləri, bələdiyyə başqanları, səfirlik nümayəndələri, həmçinin SOCAR təmsilçiləri iştirak edəcək. Bu, Türkiyədə 4-cü şəhər Xocalı parkının açılışı olacaq: Kocaelidə, Adanada, Balıkəsirdə və İzmirdə".

Daha sonra Buca bələdiyyəsinin təşkilatçılığı ilə böyük bir törən keçirildi. CHP-nin şəhər təşkilatının sədri Ələddin Yüksəl, sədr müavini Toğrul Kəskin, Buca bələdiyyəsinin başqan yardımçısı Mətin İşıq, CHP İzmir şəhər təmsilçisi Çətin Özdəmir, İzmir Konaq bələdiyyə məmuru Təyyar Fırat çıxış edib Azərbaycan-Türkiyə birliyi, Xocalı soyqırımı, yeni yaradılan Forumla bağlı fikirlərini söylədilər. Emin Həsənli, Əli Babayev, Nəsimi Qarabağlı, Mətanət Əsgərqızı, Mehriban Abdullayeva, Sərraf Orucov və digərlərinin çıxışı maraqla qarşılandı. Plaketlərin təqdimat mərasimi ilə tədbir davam etdi.

❑ **Elşad PAŞASOY, Türkiyə, İzmir**



# Yaqub Zurufçu "xəyanət" ittihamına cavab verdi

## ""Kürdüstan" mahnısını 38 il öncə ifa etmişəm"

**Ötən həftə əslən Təbrizdən olan, Azərbaycanın əməkdar artisti Yaquf Zurufçu ilə bağlı qalmaqal yaşandı. Buna səbəb müğənninin kürd şairi Əlirza Nabdel Oxtayın şeirinə yazılmış "Bura Kürdüstan" mahnısını ifa etməsi olub. Qeyd edək ki, Azərbaycan dilində oxunan mahnı klip şəklinə salınaraq internet resuslarında geniş şəkildə yayılıb.**

Yaqub Zurufçunun bu ifası mətbuatda, sosial şəbəkələrdə ciddi tənqidlərə səbəb olub. Mahnının PKK başda olmaqla, bölgədəki bir çox separatçı təşkilatların yaydıqları, Azərbaycanın işğal olunmuş əraziləri, Cənubi Azərbaycanın bir çox vilayətləri, o cümlədən başda Ankara olmaqla, Türkiyənin də ərazilərinin daxil edildiyi "Böyük Kürdüstan" xəritəsinin fonunda səslənən ifa olduğunu iddia edərək müğənnini xəyanətdə günahlandıranlar da oldu.

Yaqub Zurufçu səslənən ittihamlara sosial şəbəkədə cavab yazıb. Müğənninin iddiasına görə, qalmaqala səbəb olan mahnını 38 il bundan öncə ifa edib:

"Son günlər mənim "Kürdüstan" adlı mahnım bəzi internet portallarında müzakirəyə səbəb olub. Bilənlər bilir, bilməyənlərin diqqətinə çatdırım ki, mən bu mahnını 38 il bundan öncə şah rejiminin axırlarında, İran islam inqilabından əvvəl yazdırmışam. O zaman bu mahnı ilə yanaşı, daha 13 parçanın da yer aldığı kasetim işıq üzü gördü. "Dayaq" ləqəbi altında siyasi mövzularda ifa etdiyim bu kaset mənim İrandan çıxmağıma səbəb oldu. "Kürdüstan" mahnısına gəlincə, bu şeirə həm də ona görə müraciət etmişdim ki, onu Əlirza Nabdel (Oxtay) yazmışdı. Bu ad Şimali Azərbaycanda demək olar ki, heç kimə tanış deyil. Halbuki Əlirza Nabdel yazıları ilə cənubi azərbaycanlıların oyanış hərəkatı yolunda böyük işlər görmüş, canını fəda etmiş və şəhid olmuş böyük bir şair idi. "Azərbaycanlıların milli məsələləri" adlı kitabı yetər ki, Nabdelin kim olduğunu biləsən. Cənubi Azərbaycanın Xoy şəhərində dünyaya gələn böyük şairi kürd olmaqda ittiham etmək əvəzinə mütalıə edin.

Sovet İttifaqı zamanı xalqların dostluğunu yadınıza salın. İranda da bəzi xalqlar arasında isti münasibət var idi. Bu münasibətə onların milli məsələləri səbəb olmuşdu. Onu da qeyd edim ki, İranda olan vilayətlər arasında siyasi fikirlərinə görə ən öndə gedənləri kürdlər və azərbaycanlılar idi. Rejimin siyasi təcridxanalarını bu iki xalq doldurmuşdu. Bu iki xalq o zaman öz amalları yolunda birləşmişdi...."

**Müğənni statusunun sonunda media nümayəndələrinə səslənib:** "Dünyanın siyasətini iri kapitalist ölkəsi təyin edir. Onlar istədikləri zaman xalqları dost ya düşmənə çevirə bilər. Gəlin, xalqları ittiham etmək əvəzinə, aranı qatan iyrənc siyasətləri ifşa edək. Əziz media nümayəndələri! İttiham etmək çox asandır. Yerinə yetmək, məsələnin əsl mahiyyətinə varmaq isə ədalət yolunda təmiz vicdanla addımlamaq deməkdir. Gələcək nəsillər bizə etimad göstərsin deyə ağı qara etməyək!"

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 42 (6363) 23 fevral 2016

**Fevralın 21-də Azərbaycan xalqının "devalvasiya" sözü və onun acı nəticələri ilə tanış olmasından bir il ötdü. O vaxta qədər bir çoxları bu sözün varlığından belə xəbərsiz olsa da, bir neçə gün içində hər kəs onu cibində hiss etdi. Ən sadə vətəndaşdan, iqtisadçıya, mətbuatdan hökumətə qədər hər kəs devalvasiyadan danışdı. Ölkədə dollarlaşma prosesi sürətləndi, bazarlarda bahalaşma özünü göstərdi, bank sektoru da devalvasiyadan ciddi zərbə aldı.**

# Birinci devalvasiyadan bir il ötdü: kimlər itirdi, kimlər qazandı?

Əhali birinci devalvasiyanın təsirindən azad olmamış, dekabrın 21-də daha kəskin 47 faizlik devalvasiya baş verdi və ölkə hələ də son devalvasiyanın şokundan çıxa bilməyib. Bundan əlavə, üzən məzənnə prinsipinə uyğun olaraq 47 faizlik devalvasiyanın ardınca manat yenidən ucuzlaşsa da, hökumət bu prosesin qarşısını inzibati yollarla aldı. Ölkə üzrə valyutadəyişmə məntəqələri ləğv edildi. Manatın məzənnəsi yenidən Mərkəzi Bank tərəfindən idarə edilir. Bəs görəsən, ötən bir ildə kimlər itirdi, kimlər bu prosesdən qazandı?

**"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, devalvasiya Azərbaycan iqtisadiyyatı tarixində ən kəskin şəkildə hiss olunan və təsirləri bu günə qədər də davam edən bir proses oldu:** "Həm əhaliyə, həm banklara, həm iqtisadi aktivliyə, həm Azərbaycanın iqtisadi vəziyyətinə devalvasiya çox kəskin şəkildə təsir göstərdi. Bank sistemində olan problemlər daha kəskin şəkildə üzə çıxdı. Sadəcə, bir faktı deyim ki, ötən ilin yanvar ayının 1-də əhalinin geri qaytarılması problemli olan kreditləri cəmi 900 mln manat idi. Hazırda isə problemli kreditlərin həcmi artıq 2 milyardı keçib. Bu fakt isə onu göstərir ki, həm əhalidə, həm də banklarda hansı problemlər yaşanır. Əhali ona görə borclarını qaytara bilmir ki, devalvasiyadan sonra onların borcları da artdı, həm də iş yerləri bağlandı, iqtisadi aktivlik zəiflədi, gəlirlər azaldı. Bu prosesi şəhərdə vizual olaraq da görmək mümkündür. Ticarət dövriyyəsi xeyli azalıb. Dükanlar bir-birinin ardınca bağlanır, obyektlər icarəyə verilir və bu cür elanları şəhərin hər yerində görmək mümkündür. Yan-yana olan ən azı 3 obyektdən birində belə elanların asılmasını görürük".

**Ekspertin sözlərinə görə, dekabr ayında olan ikinci devalvasiya isə iqtisadi aktivliyi demək olar ki, sıfırladı:** "Azərbaycanda bu gün həm pərakəndə ticarətin dövriyyəsində, həm bank sektorunda, daşınmaz əmlak bazarında, avtomobil bazarında durğunluq yaşanır. Rəsmi rəqəmlər də bunu sübut edir ki, ölkəyə gətirilən məhsulların və malların həcmində də ciddi azalma var. Deməli, əhalinin alıcılıq qabiliyyəti aşağı düşüb. Bu prosesin çox ciddi fəsadları olacaq və davamlı olaraq biz bunu hiss edəcəyik. Sadəcə, Azərbaycan hökuməti inzibati yollarla, manatın dövriyyəsini azaltmaqla, humanitar siyasəti sərtləşdirməklə, valyutadəyişmə məntəqələrini bağlamaqla, banklara məzənnə ilə bağlı əmr verməklə vəziyyəti nəzarətdə saxlamağa çalışır və az da olsa buna nail olub".



**Natiq Cəfərli:** "Devalvasiya Azərbaycan iqtisadiyyatı tarixində ən kəskin şəkildə hiss olunan və təsirləri bu günə qədər də davam edən bir proses oldu"



**Samir Əliyev:** "Əhalinin milli valyutaya və bank sektoruna inamı azaldı"

**Natiq Cəfərlinin fikrincə, inzibati yollarla vəziyyəti daimi olaraq nəzarətdə saxlamaq mümkün olmayacaq:** "Ya iqtisadi aktivliyin azalmasına göz yummalı, manatın məzənnəsini indiki səviyyədə qorumalıdır. Ya da iqtisadi aktivliyi artırmaq üçün müəyyən stimullaşdırıcı addımlar atmalı, manatın dövriyyəsini sürətləndirməlidir. Ancaq bu da manatın dollara qarşı məzənnəsinə ciddi təsir göstərəcək, dolların bahalaşmasına gətirib çıxaracaq. Yəni hökumət iki pis seçimdən birinə getməlidir. Lakin inzibati yolla, əmr verməklə iqtisadiyyatı idarə etmək mümkün olmayacaq. Çünki iqtisadiyyatın öz qanunları var və bu qanunlar gec-tez işə düşəcək. Belə davam etsə, bir müddət sonra bazarlarda qıtlığın şahidi olacağıq. Büdcənin yeni parametrləri təsdiq olunduqdan sonra hökumət müəyyən addımlar atmağa məcbur olacaq. Yaxın həftələrdə martın əvvəllərində bu özünü göstərəcək. Ancaq hansı istiqamətdə olacağını demək çətindir".

**Samir Əliyev devalvasiyanı Azərbaycan iqtisadiyyatının fəlakəti kimi qiymətləndirdi və hökumətin bundan heç nə qazanmadığını ifadə etdi:** "Manat ötən bir il ərzində iki dəfə dəyərini itirdi. Səbəbi də aydındır, bu, neft ölkələrinin düşdüyü bir durumdur. Neftin ucuzlaşması manatı da zərbə altında qoydu. Manatın devalvasiyası bank sektoruna ciddi zərbə vurdu. Bir neçə bank qısa müddətdə bağlandı. Hazırda bir neçəsinin də taleyi sual altındadır. Onların bağlanması da zaman məsələsidir. Bəzi bankların da filialları bağlandı, işçiləri ixtisar olundu, maaşlar azaldıldı. Eyni zamanda əhalinin milli valyutaya və bank sektoruna inamı azaldı. Bu da özünü ondan göstərdi ki, əmanətlər kütləvi şəkildə dollarlaşdı. Yəni əmanətlərin 85 faizi dollar hesablarına yatırılıb. Bir qrup insan isə əmanətlərini artıq bank sektoruna etibar etmədiyi üçün banklardan geri götürüb. Kredit verilməsində manatın payı azalmağa başladı. Devalvasiyadan sonra problemli kreditlərin faizi artdı, bu gün rəsmi rəqəmlərdə bu, 7 faizə qədər göstərilsə də, əslində reallıqda 20 faizdən çoxdur. Elə banklar var ki, orada 60-70 faiz problemli kredit var. Bu problemlər devalvasiyanın fəsadlarıdır".

**Samir Əliyev onu da qeyd etdi ki, devalvasiyanın daha ciddi fəsadı valyuta ehtiyatlarının azalmasıdır:** "Ötən ilin əvvəlində manat devalvasiyaya uğrasa belə, valyuta ehtiyatları 10 milyard manat azaldı. Bu gün isə Mərkəzi Bankın valyuta ehtiyatları 4 milyard dollara yaxınlaşır. İkinci devalvasiyadan sonra da Mərkəzi Bankın valyuta ehtiyatları azalmaqda davam edir. Devalvasiyadan sonra Neft Fondunun ehtiyatları da azaldı. Devalvasiyanın gözlənilən faydaları da özünü doğrultmadı. İlk dəfə devalvasiya olanda hökumət bunu belə əsaslandırdı ki, bu, ixracı stimullaşdırmaqdır. Yəni Azərbaycanın əsas ticarət tərəfdaşları olan ölkələrdə milli valyuta ucuzlaşır və bizim rəqabət imkanlarımız zəifləyir. Devalvasiyadan sonra ixracın artması gözlənilirdi. Lakin bu sahədə də heç bir fərq olmadı. Sadəcə, ixrac şirkətlərinin gəlirləri artdı ki, dollarla aldıqları gəlirlərdən daha çox qazandılar. Daha çox valyuta alqı-satqısı ilə məşğul olan möhtəkirlər qazandılar. İnsanların panikasından istifadə edib daha çox qazandılar. Ancaq devalvasiyadan dövlət heç nə qazana bilmədi, əksinə, xarici borcları artdı. Yəni müsbət cəhətlərini ifadə etmək üçün hansısa fakt tapa bilmirəm".

❑ **Nərgiz LİFTİYEVA**

# Müxalifətin antiböhran koalisiyasından böyük iddia

## Sərdar Cəlaloğlu: "Etiraf eləmək lazımdır ki, Müsavatın və AXCP-nin tədbirləri bizim tədbirlərin kölgəsində qalır"

**Müxalifətin antiböhran koalisiyası fevralın 21-də ikinci geniş toplantısını keçirib. ADP-nin qərargahında keçirilən tədbirdə nəzərəçarpacaq səviyyədə qələbəliyin müşahidə olunması müxalifət düşərgəsində yeni və dayanıqlı birliyin formalaşmaqda olduğu iddialarını ortaya çıxarıb. Antiböhran koalisiyasında KXCP, AXP, ADP, VİP, AzDP, ALDP, BAP, Azadlıq Partiyası, GAP, AG blok və digər müxalifyönlü təşkilatlar, QHT-lər təmsil olunur.**

Demokratik düşərgənin ənənəvi əsas qüvvələri sayılan Müsavat Partiyası və AXCP isə bu koalisiyada iştirak etmirlər. Buna baxmayaraq, bir çoxları hesab edir ki, bu koalisiya müxalifət düşərgəsində yeni və böyük formatda birliyin yaranmasıdır. Eyni zamanda qeyd edilir ki, Müsavatsız və AXCP-siz birlik heç də perspektivsiz hesab olunmamalıdır. Bu fikirdə olanların düşüncəsinə görə, Müsavatla AXCP-nin olmaması bu birliyin dayanıqlı və intriqasız birlik olacağı ümidini yaradır. Çünki Müsavatla AXCP uzun müddət bir yerdə ola bilmirlər və birlikləri qısa müddətli olur.



Antiböhran koalisiyasında təmsil olunan və keçirilən toplantılara ev sahibliyi edən ADP sədri Sərdar Cəlaloğlu bu barədə danışarkən bildirdi ki, artıq bir aya yaxındır koalisiya elan olunub. Keçirilən böyük toplantılar da həmin koalisiyanın tədbirləridir. Hər üçüncü gün saat 12-də isə koalisiyadakı təşkilatların rəhbərlərinin - idarə heyətinin toplantısı olur.

**Növbəti toplantının ALDP-nin ofisində keçiriləcəyini deyən ADP sədri bildirdi ki, koalisiyanın dayanıqlı olacağı və ölkədəki proseslərdə avanqard rolunu oynayacağına ümid edir. Bu ümidlər üçün əsaslar var:** "Müxalifətin antiböhran koalisiyası artıq böhranlı vəziyyətin aparıcı fiquruna çevrilib. Toplantılara getdikcə daha çox insanın qatılması müşahidə edilir".

**Müsavat Partiyası ilə AXCP-nin antiböhran koalisiyasında iştirak etməməsinin bu birliyin daha dayanıqlı və uzun ömürlü olub-olmayacağı barədə iddialara gəlincə, S.Cəlaloğlu bunları bildirdi:** "Təcrübə göstərir ki, Müsavat Partiyası ilə AXCP-nin bir-biri ilə intriqaları onların üzv olduğu ittifaqları zəiflədib dağıdıb. O baxımdan yanaşılsa, deyilə bilər ki, həmin partiyaların müxalifətin Böhran Koalisiyasında olması da bir müddət sonra öz təsirini göstərəcək. Amma biz arzu edirik ki, bütün müxalifət bir yerdə olsun. Çünki ölkədə ümumi böhranlı vəziyyət milli maraqları təhdid eləyən vəziyyətdir. Burada kiçik şəxsi maraqları önə çıxarmaq qətiyyən doğru olmazdı. Ona görə də hesab edirəm ki, Müsavatla AXCP-nin də bu koalisiyada olması ümumi işin xeyrinə olar. Amma olmamaları da bizim işimizə mane olmayacaq. Əksinə, özünüz də gördünüz ki, sonuncu toplantıda əvvəlkindən iki dəfə çox adam iştirak edirdi. Eyni zamanda toplantı internetlə canlı yayınlanırdı və minlərlə insan müzakirələri izləmək imkanına malik oldu. Gələcəkdə bunun mitinqlərə çevrilməsi istiqamətində müəyyən ideyalar var. Müxalifətin antiböhran koalisiyası artıq böhranlı vəziyyətin aparıcı fiquruna çevrilib. Etiraf eləmək lazımdır ki, Müsavatın və AXCP-nin tədbirləri antiböhran koalisiyasının tədbirlərinin kölgəsində qalır. Biz arzu edərdik ki, bir yerdə olaq, qüvvələrimizi birləşdirək. Amma heç kəsi də zorla birliyə gətirə bilmərik. Gəlsələr yaxşı olar, gəlməsələr də pis olmaz".

❑ **Etibar SEYİDAĞA**